RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 137 (9592) 4 iyul 2024-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Azərbaycan dost dövlətlərlə bir sıradadır

## İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında iştirak edir

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana səfəri











İyulun 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) sədri statusunda Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin dəvəti ilə ŞƏT-in Zirvə toplantısında iştirak etmək üçün Astanaya səfər edib. Astana şəhərinin Nursultan Nazarbayev Beynəlxalq Aeroportunda Azərbaycan Prezidentini Qazaxıstanın Baş nazirinin müavini Kanat Bozumbayev və digər rəsmi şəxslər qarşıladılar. Qeyd edək ki, bu, Prezident İlham Əliyevin Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında ikinci iştirakıdır. Bundan əvvəl Şanxay Əməkdaşlıq Təşkilatının sədri statusunda Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin dəvəti ilə dövlətimizin başçısı təşkilatın 2022-ci il sentyabrın 16-da Özbəkistanın Səmərqənd şəhərində keçirilmiş Zirvə toplantısında iştirak etmişdir. Əvvəlcə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşü olub. Sonra Prezident İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə görüşü keçirilib. Həmin gün həmçinin imzalanmış "Azərbaycan İnvestisiya Holdinqi və "Samruk-Kazına" Milli Rifah Fondu" Səhmdar Cəmiyyəti arasında Səhmdarlar Müqaviləsi"nin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə mübadiləsi mərasimi olub. Astanada eyni zamanda Azərbaycan Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşü keçirilib. Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində iyulun 3-də "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" qəbul olunub. Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif arasında üçtərəfli görüş keçirilib.

**Rusiya Prezidenti Vladimir PUTİN:**

- Qarşılıqlı fəaliyyətimizin miqyası böyükdür, mənə elə gəlir ki, hətta hər gün, hər ay görüşsək, danışmaq üçün mövzularımız var. Diqqətinizi ona cəlb etmək istəyirəm ki, əsas məsələ - məhz qarşılıqlı iqtisadi-ticari fəaliyyət üzrə əlaqələrimiz müsbət istiqamətdə inkişaf edir. Dövriyyə dörd milyarddan çoxdur, məncə, 4,3-4,5 milyarddır və bu, Rusiyanın Azərbaycan iqtisadiyyatına birbaşa sərmayəsidir. Tendensiya yaxşıdır, məncə, ilin birinci yarısında artıq 13 faizlik artım var. Ümumiyyətlə, hər şey müsbət inkişaf edir.

## "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında" birgə bəyannamə

Azərbaycan Respublikası və Çin Xalq Respublikası (bundan sonra "Tərəflər" adlanır) yekdilliklə hesab edirlər ki, diplomatik münasibətlərin qurulduğu 2 aprel 1992-ci ildən etibarən iki ölkə arasında ikitərəfli əməkdaşlıq müxtəlif sahələrdə səmərəli nəticələr verib.

Tərəflər beynəlxalq və regional vəziyyətin tektonik və mürəkkəb inkişafı fonunda siyasi, iqtisadi və mədəni sahələrdə əməkdaşlığı genişləndirməyə, beynəlxalq məsələlərdə qarşılıqlı fəaliyyəti gücləndirməyə, iki ölkənin ümumi maraqlarını birgə qorumağa, həmçinin regional və qlobal sülh, sabitlik və inkişaf fəaliyyətini birgə irəlilətməyə dair razılıq əldə ediblər.

1.0. Tərəflər strateji tərəfdaşlıq qurur, ikitərəfli münasibətlərin təməl prinsipləri olan qarşılıqlı hörmət, bərabərlik, etimad, qarşılıqlı dəstək, qarşılıqlı fayda və əməkdaşlıqdan çıxış edirlər. Tərəflər bir-birini prioritet və etibarlı tərəfdaş hesab edir və xarici amillərdən asılı olmayaraq ikitərəfli münasibətlər üzrə siyasətlərini müstəqil şəkildə müəyyənləşdirirlər.

1.1. Tərəflər ərazi bütövlüyünə və suverenliyə qarşılıqlı hörmət, hücum etməmək, daxili işlərə qarışmamaq, bərabərlik, qarşılıqlı fayda və dinc birgəyaşayışa sadiqliyi təsdiqləyirlər. Azərbaycan tərəfi "Vahid Çin" prinsipini qətiyyətlə dəstəkləyir, dünyada yalnız bir Çinin mövcudluğunu, Çin Xalq Respublikası hökumətinin bütün Çini təmsil edən yeganə qanuni hökumət olduğunu, Tayvanın isə Çin ərazisinin ayrılmaz bir hissəsi olduğunu tanıyır, istənilən formada "Tayvanın müstəqilliyi"nə qarşı qətiyyətlə çıxış edir və Tayvan boğazının iki sahili arasındakı münasibətlərin dinc inkişafını, habelə Çin Hökumətinin Çinin birləşdirilməsi istiqamətində səylərini dəstəkləyir.

→ 4

**Çin Xalq Respublikasının Sədri Si CİNPİN:**

- Ölkələrimiz yaxşı dostlardır, bərabərlik və qarşılıqlı faydaya əsaslanan yaxşı tərəfdaşlardır. Çin-Azərbaycan münasibətləri həmişə sağlam və sabit şəkildə inkişaf edib. İki ölkə arasında əməkdaşlıq səmərəli nəticələr verib və daha zəngin strateji məzmuna çatıb. Bu gün biz birgə bəyannamə qəbul edəcəyik. Bu sənədlə ikitərəfli əlaqələrimizi strateji tərəfdaşlıq səviyyəsinə yüksəldəcəyimizi bəyan edəcəyik. Bu, həm də yeni bir başlanğıc nöqtəsidir. Biz xalqlarımızın rifahı naminə qarşılıqlı dəstəyi artırmağa davam edəcəyik.

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana səfəri

# Azərbaycan dost dövlətlərlə bir sıradadır

## İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında iştirak edir

### Astana şəhərinin Nursultan Nazarbayev Beynəlxalq Aeroportunda qarşılanma



**Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) sədri statusunda Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin dəvəti ilə ŞƏT-in Zirvə toplantısında iştirak etmək üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 3-də Astanaya səfərə gedib.**

AZƏRTAC xəbər verir ki, Astana şəhərinin Nursultan Nazarbayev Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentini Qazaxıstanın Baş nazirinin müavini Kanat Bozumbayev və digər rəsmi şəxslər qarşıladılar.

Qeyd edək ki, bu, Prezident İlham Əliyevin Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında ikinci iştirakıdır. Bundan əvvəl Şanxay Əməkdaşlıq Təşkilatının sədri statusunda Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin dəvəti ilə dövlətimizin başçısı təşkilatın 2022-ci il sentyabrın 16-da Özbəkistanın Səmərqənd şəhərində keçirilmiş Zirvə toplantısında iştirak edib.

### Astanada Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Prezidenti Vladimir Putin ilə görüşü olub

**İyulun 3-də Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Rusiya Prezidenti **Vladimir Putin** dedi:

- Hörmətli İlham Heydər oğlu, Sizi bir daha görməyimə şadam.

Qarşılıqlı fəaliyyətimizin miqyası böyükdür, mənə elə gəlir ki, hətta hər gün, hər ay görüşsək, danışmaq üçün mövzularımız var. Diqqətinizi ona cəlb etmək istəyirəm ki, əsas məsələ - məhz qarşılıqlı iqtisadi-ticari fəaliyyət üzrə əlaqələrimiz müsbət istiqamətdə inkişaf edir. Dövriyyə dörd milyarddan çoxdur, məncə, 4,3-4,5 milyarddır və bu, Rusiyanın Azərbaycan iqtisadiyyatına birbaşa sərmayəsidir. Tendensiya yaxşıdır, məncə, ilin birinci yarısında artıq 13 faizlik artım var. Ümumiyyətlə, hər şey müsbət inkişaf edir.

İnfrastruktur sahəsindəki planlarımızı qeyd etmək istərdim və təbii ki, burada indi birinci yerdə məlum Şimal-Cənub magistralıdır. Ümidvaram ki, bu barədə də bir neçə kəlmə danışacağıq. Digər istiqamətlərdə, o cümlədən enerji və sənaye sahələrində əməkdaşlıq imkanları var. Sizinlə 2022-ci ildə imzaladığımız müqavilə əsasında fəaliyyət göstəririk. Bu, bütün sahələrdə əlaqələrin inkişafı üçün yaxşı zəmindir.



Mən humanitar sahəni də qeyd edəcəyəm. Məncə, Azərbaycanda Rusiya Mədəniyyəti Günləri yenicə başa çatıb. Mən Sizin rus dilinin dəstəklənməsinə şəxsi xüsusi diqqətinizi həmişə qeyd edirəm. Azərbaycanda rus dilində 300-dən çox məktəb fəaliyyət göstərir, gənclərə və uşaqlara rus dili öyrədilir. Bu, gələcəkdə də əlaqələrimizin qorunub saxlanılması və inkişafı üçün yaxşı zəmin və perspektivlər yaradır.

Sizi görməyimə çox şadam.

* * *

Azərbaycan Prezidenti **İlham Əliyev** dedi:

- Sağ olun Vladimir Vladimiroviç. Sizinlə yenidən görüşməyimə çox şadam.

Qeyd etdiyiniz kimi, məsələlər çoxdur. Amma prinsipcə, onları müzakirə etmək üçün biz, demək olar ki, ayda bir dəfə görüşürük. Sonuncu dəfə aprelin ikinci yarısında Moskvaya səfər etdim. Ondan bir aydan bir qədər sonra yenidən görüşürük. Siz də qeyd etdiyiniz kimi, bu onu göstərir ki, böyük uğurla həll edilən çoxlu məsələlər var. Əlbəttə, həm keçən il, həm də bu il əmtəə dövriyyəsinin artması ölkələrimizin iqtisadiyyatlarının fəal qarşılıqlı fəaliyyət göstərdiyini nümayiş etdirir. Sevindirici haldır ki, həmçinin milli valyutalarda qarşılıqlı hesablaşmalar artır. Bu, Azərbaycanın Rusiyaya ixracında artıq 70 faizdən çoxdur, Rusiyanın Azərbaycana ixracında isə 50 faizə yaxındır. Beləliklə, Sizinlə bir neçə il əvvəl danışdıqlarımız artıq uğurla həyata keçirilir.

Humanitar əməkdaşlıq həmişə qarşılıqlı fəaliyyətimizin, demək olar ki, əsasını təşkil edib. Sizə minnətdaram ki, Azərbaycanda rus dilinə, rus mədəniyyətinə, ədəbiyyatına olan münasibəti həmişə qeyd edirsiniz və yüksək qiymətləndirirsiniz. Azərbaycanda böyük uğurla keçirilən Rusiya Mədəniyyəti Günləri də bunu bir daha təsdiqləyir. Bizdə bir milyona yaxın şagird rus dilində təhsil alır, 150 min nəfər rus məktəblərində oxuyur, 800 min nəfər isə rus dilini ikinci dil kimi öyrənir. Yəni bu, onu deməyə əsas verir ki, vətəndaşlarımızın gələcək nəsilləri də aktiv qarşılıqlı fəaliyyətdə olacaqlar və rus dilində Sizinlə mənim danışdığımız kimi danışacaqlar.

Keçən dəfə Moskvada "Şimal-Cənub" layihəsini müzakirə etdik. O vaxtdan bəri müsbət irəliləyişlər baş verdi. Bu barədə danışacağıq. Biz Azərbaycan ərazisində dəhlizin infrastrukturunu genişləndirmək əzmindəyik, fiziki cəhətdən mövcud olsa da, o, tərəfdaşlarımızın və qonşularımızın bu layihədən maksimum istifadə ilə bağlı niyyətlərinə uyğun gəlmir.

Həmçinin Siz qeyd etdiyiniz kimi, energetika sahəsində yeni ideyalar var, bizim müvafiq strukturlarımız daimi təmasdadır. Bu gün bu barədə də danışacağıq. Həmçinin başqa istiqamətlər üzrə də.

Qeyd etdiyiniz kimi, 2022-ci ildə biz uğurla həyata keçirilən Müttəfiqlik Bəyannaməsini imzaladıq və bəyannamənin bütün bəndləri real həyatda öz əksini tapır. Artıq iki ildən artıqdır ki, müttəfiqlər kimi birgə işləyirik və yaxşı nəticələrə nail oluruq. Bu gün bu barədə daha ətraflı danışacağıq.

Sizinlə görüşmək imkanına görə bir daha təşəkkür edirəm.

* * *

Görüşdə Rusiya Prezidenti Vladimir Putin Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılmasına və sülh gündəliyinin irəli aparılmasına daim dəstək verməyə hazır olduğunu dedi. Bu əsnada müzakirələr aparıldı. Dövlətimizin başçısı Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması prosesi haqqında məlumat verdi.

Söhbət zamanı nəqliyyat, gəmiqayırma, əczaçılıq, avtomobil sənayesi sahələrində əməkdaşlıq, Rusiyanın avtomobil istehsal edən müxtəlif şirkətləri tərəfindən Azərbaycanda istehsalın təşkili məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Rusiyadan Azərbaycana gələn turistlərin sayında artım və Azərbaycanda Rus Dram Teatrının fəaliyyət göstərdiyi qeyd edildi.

## Azərbaycan və Qazaxıstan prezidentlərinin görüşü keçirilib

İyulun 3-də Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə görüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Qazaxıstan Prezidenti **Kasım-Jomart Tokayev** dedi:

- Hörmətli İlham Heydər oğlu.

Sizi Astanada səmimi-qəlbdən salamlayıram. Sizi görməyimə şadam. Bakıya, Şuşaya səfərimi daim xatırlayıram. Həqiqətən bu, dönüş yaradan, mühüm, mübaliğəsiz demək olar ki, həm də öz əhəmiyyətinə görə tarixi səfər idi. Danışıqlar əsnasında qarşılıqlı fəaliyyətimizin, hətta deyərdim ki, bir sıra strateji sahələrdə əməkdaşlığın və qarşılıqlı fəaliyyətin gələcək inkişafına böyük impuls verdik. Mübaliğəsiz deyə bilərik ki, əməkdaşlığımız, qarşılıqlı fəaliyyətimiz strateji əhəmiyyət daşıyır.

Sizi qonaq qismində Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında görməkdən məmnunam. Bəlkə də bir müddət sonra Azərbaycan ŞƏT-in tamhüquqlu üzvü olacaq. Hər halda, Qazaxıstan buna etiraz etmir, əksinə, Sizin tərəfinizdən müvafiq istək varsa, onu dəstəkləyir.

Qazaxıstanda Sizi Azərbaycanın şəksiz Lideri, görkəmli dövlət xadimlərindən biri kimi tanıyırlar. Açıq deyirəm ki, biz Qazaxıstanda Sizin ölkənizdə baş verən bütün dəyişiklikləri böyük maraqla izləyirik, bu dəyişikliklərə ürəkdən sevinirik. Əlbəttə, sözsüz ki, burada Sizin böyük şəxsi rolunuz var və onu yüksək qiymətləndiririk.

Qazaxıstan ərazisində Ermənistanla danışıqlar üçün platforma təqdim etmək təklifimizə dərhal razılıq verdiyinizə görə Sizə minnətdaram. İlk danışıqlar Almatıda baş tutdu. Onlar kifayət qədər uğurlu, hər halda faydalı oldu.



Azərbaycana səfərimin nəticələrinə qayıdaraq deməliyəm ki, hazırda biz əldə olunmuş razılaşmaların həyata keçirilməsi üzərində işləyirik. Əslində, biz burada - ŞƏT çərçivəsində görüşsək də, bu, əməkdaşlığımızla bağlı bütün məsələlər üzrə tamformatlı danışıqlardır. Ona görə də indi sözü Sizə vermək istərdim.

* * *

Sonra çıxış edən Azərbaycan Prezidenti **İlham Əliyev** dedi:

- Hörmətli Kasım-Jomart Kemeleviç.

İlk növbədə ŞƏT-in Zirvə toplantısında iştirak etmək üçün dəvətinizə görə Sizə minnətdarlığımı bildirirəm. Biz bunu Qazaxıstanın Azərbaycana qardaşlıq münasibətinin növbəti göstəricisi kimi qiymətləndiririk. Bu tədbirdə iştirak etməkdən şərəf duyuruq. Həmçinin vaxt ayırdığınıza görə təşəkkür edirəm, bu günlərdə görüşlərlə bağlı nə qədər məşğul olduğunuzu bilirəm. Nisbətən yaxın vaxtlarda görüşməyimizə baxmayaraq, gündəmə bir az nəzər salmağa, razılaşmalarımızı necə həyata keçirdiyimizi görməyə ehtiyac var.

Sizin Azərbaycana dövlət səfəriniz, əslində, həm forma, həm məzmun, həm də emosional əhvali-ruhiyyə baxımından tarixi idi. İşğaldan azad edilmiş ərazilərin bərpasına kömək göstərilməsi təşəbbüsünüzə görə bir daha bütün Azərbaycan xalqı adından minnətdarlığımı bildirmək istəyirəm. Qazax xalqının dahi oğlu Kurmanqazının adını daşıyan mərkəz səmərəli fəaliyyət göstərir və Sizinlə birlikdə qeyd etdiyimiz kimi, bu, Qazaxıstan-Azərbaycan dostluğunun və qardaşlığının mərkəzidir. Bu, şəxsən Sizin və qardaş Qazaxıstan xalqının Azərbaycana münasibətinin bariz təzahürüdür.

Müzakirə etdiyimiz və razılaşdırdığımız bütün istiqamətlər üzrə müsbət dinamika əldə olunur. Nəqliyyat infrastrukturu ilə bağlı məsələlər fəal şəkildə həyata keçirilir. Biz mahiyyət etibarilə Trans-Xəzər nəqliyyat marşrutu üzrə vahid komanda şəklində fəaliyyət göstəririk. Əlbəttə, bugünkü və sabahkı tədbirlər çərçivəsində bu mövzu daha geniş müzakirə ediləcək. Həmçinin bu, bir neçə gün sonra keçiriləcək və Sizi yenidən Qarabağda görməyimizə şad olacağımız Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşündə əsas mövzu olacaq.

Eyni zamanda Azərbaycan ilə Ermənistan arasında prosesə verdiyiniz dəstəyə görə təşəkkürümü bildirmək istərdim.

* * *

Dövlətimizin başçısı Qazaxıstan Prezidentinin Azərbaycana səfəri zamanı əldə olunmuş razılaşmaların həyata keçirilməsi istiqamətində birgə addımların və səylərin davam etdirildiyini vurğuladı, görüşün yaxın günlərdə Türk Dövlətləri Təşkilatının Şuşada keçiriləcək qeyri-rəsmi Zirvə toplantısında davam edəcəyini bildirdi.

Türk Dövlətləri Təşkilatının da ölkələrimizin gündəliyində prioritet istiqamət olduğu vurğulandı.

Prezident İlham Əliyev Kasım-Jomart Tokayevin rəhbərliyi ilə Qazaxıstanın inkişafının, beynəlxalq səviyyədə nüfuzunun artmasının, ölkədə həyata keçirilən siyasi-iqtisadi islahatların dost və qardaş Azərbaycanı da sevindirdiyini bildirdi, bu münasibətlə təbriklərini çatdırdı.

Qazaxıstan Prezidenti qeyd etdi ki, ölkəsi Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatına tam üzvlüyünü dəstəkləməyə hazırdır.

Kasım-Jomart Tokayev COP29-un ölkəmizdə keçirilməsi münasibətilə təbriklərini çatdırdı.

COP29-un dünya səviyyəsində ən mötəbər tədbirlərdən biri olduğunu deyən Qazaxıstan Prezidenti Azərbaycanın bu tədbiri uğurla təşkil edəcəyinə əminliyini bildirdi.

Görüşdə ölkələrimizin bu məsələ ilə bağlı müxtəlif təşəbbüslərlə çıxış etmələrinə toxunuldu.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını ifadə etdi.

Söhbət zamanı Orta dəhlizin inkişafı istiqamətində nailiyyətlər qeyd olundu, Birgə İnvestisiya Fondu ilə əlaqədar imzalanacaq anlaşma memorandumunun əhəmiyyəti bildirildi və bu xüsusda artıq konkret layihələrin icrasına dair aidiyyəti qurumlara tapşırıqlar verildiyi diqqətə çatdırıldı.

Humanitar sahədə əməkdaşlığa toxunuldu, Qazaxıstan Mədəniyyət Günlərinin Azərbaycanda uğurla keçirildiyi, Azərbaycan Mədəniyyət Günlərinin isə bu ilin sentyabrında Qazaxıstanda keçiriləcəyi vurğulandı.

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana səfəri

# Azərbaycan dost dövlətlərlə bir sıradadır

## İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında iştirak edir

## Astanada Azərbaycan ilə Qazaxıstan arasında imzalanmış Səhmdarlar Müqaviləsinin mübadiləsi mərasimi olub





İyulun 3-də Astanada imzalanmış "Azərbaycan İnvestisiya Holdinqi və "Samruk-Kazına" Milli Rifah Fondu" Səhmdar Cəmiyyəti arasında Səhmdarlar Müqaviləsi"nin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə mübadiləsi mərasimi olub.

## Azərbaycan Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşü keçirilib



**Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşü keçirilib.**

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Çin Xalq Respublikasının Sədri **Si Cinpin** dedi:

- İnanıram ki, cənab Prezidentin rəhbərliyi ilə Azərbaycan bundan sonra da ölkə quruculuğunun müxtəlif istiqamətlərində yeni nailiyyətlər əldə edəcək. Çin-Azərbaycan əlaqələri səmimiyyətə və qarşılıqlı etimada əsaslanır.

Ölkələrimiz yaxşı dostlardır, bərabərlik və qarşılıqlı faydaya əsaslanan yaxşı tərəfdaşlardır. Çin-Azərbaycan münasibətləri həmişə sağlam və sabit şəkildə inkişaf edib. İki ölkə arasında əməkdaşlıq səmərəli nəticələr verib və daha zəngin strateji məzmuna çatıb. Bu gün biz Birgə Bəyannamə qəbul edəcəyik. Bu sənədlə ikitərəfli əlaqələrimizi strateji tərəfdaşlıq səviyyəsinə yüksəldəcəyimizi bəyan edəcəyik. Bu, həm də yeni bir başlanğıc nöqtəsidir. Biz xalqlarımızın rifahı naminə qarşılıqlı dəstəyi artırmağa davam edəcəyik.

* * *

Azərbaycan Prezidenti **İlham Əliyev** görüşdə çıxış edərək dedi:

- Hörmətli cənab Sədr.

Yenidən görüşməyimizə çox şadam. Siz qeyd etdiyiniz kimi, ölkələrimiz yaxın tərəfdaşlardır və bu gün qəbul ediləcək bəyannamə Çin Xalq Respublikasını və Azərbaycanı rəsmi olaraq strateji tərəfdaşlara çevirir. Hesab edirəm ki, bu, böyük nailiyyətdir, həmçinin yüksək məsuliyyətdir. Biz gələcəkdə də fəal qarşılıqlı fəaliyyət göstərmək, ikitərəfli əlaqələri bütün istiqamətlər üzrə möhkəmləndirmək niyyətindəyik.

Şadam ki, Sizinlə görüşlərimiz müntəzəm xarakter daşıyır və ölkələrimiz arasında hərtərəfli münasibətlərin inkişafına mühüm impuls verir. Beynəlxalq strukturlarda qarşılıqlı dəstəyi, ikitərəfli səviyyədə qəbul edilən müxtəlif sənədlərdə ölkələrimizin ərazi bütövlüyünün və suverenliyinin dəstəklənməsinin ifadə olunmasını xüsusi vurğulamaq istərdim.

Eyni zamanda ölkələrimizin nazirləri, idarələri, dövlət strukturları, ictimai təşkilatları səviyyəsində fəal diplomatiyanı, Çin Kommunist Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında məhsuldar əməkdaşlığı qeyd etmək istərdim. Bütün bunlar əlaqələrimizi möhkəmləndirir.

Ölkələrimiz arasında əmtəə dövriyyəsinin artması bizi sevindirir, o, 3 milyard dollara çatıb və artım potensialına malikdir. Azərbaycan artıq Çinin 6 şəhərində ticarət evi açıb, bununla da Çin bazarında öz məhsullarını təşviq etməyə çalışır. Həmçinin biz Çin Xalq Respublikasından Azərbaycana ixracın artmasından məmnunuq.

COVID-19 epidemiyası zamanı göstərilən köməyə görə bir daha Sizə minnətdarlığımı bildirmək istərdim. Mənim Sizə yazılı müraciətimə dərhal müsbət reaksiya verildi və Azərbaycana minlərlə insanın həyatını xilas edən milyon dozadan çox vaksin çatdırıldı. Azərbaycan bu sınaqdan ilk növbədə Sizin dostluq münasibətiniz və çətin vaxtda bizə köməyiniz sayəsində ən az itkilərlə çıxan ölkələr sırasında oldu.

Qeyd etmək istərdim ki, investisiya əməkdaşlığının perspektivləri artıq əyani şəkildə görünür. Son hadisələr arasında elektromobillərin və elektrobusların tanınmış istehsalçısı - Çinin "BYD" şirkətinin Azərbaycanın strateji tərəfdaşı seçilməsini qeyd etmək istərdim. Əməkdaşlığın, elektrobusların və digər elektromobillərin birgə istehsalının ilk addımı olaraq müvafiq sənədlər imzalanıb. Əlbəttə, ölkələrimiz arasında yükdaşımaların artmasını xüsusi məmnunluqla qeyd edirəm.

* * *

Si Cinpin İlham Əliyevi Prezident seçilməsi münasibətilə təbrik etdi. Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın daim "Vahid Çin" siyasətini dəstəklədiyini vurğuladı. Tayvanda keçirilmiş seçkilərin Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən pislənildiyi, Çinin də Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə dəstək ifadə etdiyi qeyd olundu.

Si Cinpin Azərbaycanın daim "Vahid Çin" siyasətini dəstəklədiyinə görə təşəkkürünü bildirdi. Ekstremizmə və separatizmə qarşı mübarizədə ölkələrimizin mövqelərinin üst-üstə düşdüyü xüsusi qeyd olundu.

Prezident İlham Əliyev Azərbaycanın multilateralizmə - çoxtərəfli diplomatiyaya böyük əhəmiyyət verdiyini vurğulayaraq qeyd etdi ki, Azərbaycan ölkələrin daxili işlərinə qarışmamaq prinsipinin tərəfdarıdır. İkili standartlardan əziyyət çəkmiş ölkəmiz də daxili işlərimizə qarışmaq cəhdlərini qəbul etmir.

Şanxay Əməkdaşlıq Təşkilatında Azərbaycanın statusunun artırılmasının Çin tərəfindən dəstəkləndiyi vurğulandı, gələn il Çinin sədrliyi çərçivəsində bu məsələyə xüsusi diqqət yetiriləcəyi bildirildi.

Si Cinpin Azərbaycan Prezidentini Şanxay Əməkdaşlıq Təşkilatının Çində keçiriləcək Zirvə toplantısına, eyni zamanda bu əsnada Çinə dövlət səfərinə dəvət etdi.

Prezident İlham Əliyev dəvəti məmnunluqla qəbul etdi.

Azərbaycan Prezidenti də Çin Xalq Respublikasının Sədrini uyğun vaxtda ölkəmizə rəsmi səfərə dəvət etdi.

Azərbaycanın "Bir kəmər, bir yol" layihəsini dəstəkləyən və buna qoşulan ilk dövlətlərdən biri olduğu vurğulandı, ölkəmizin nəqliyyat-logistika imkanları, bu sahəyə hazırda Azərbaycanın investisiyalar qoyduğu və daim onu təkmilləşdirməsi sayəsində qazandığı uğurları qeyd edildi. Bu xüsusda, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin ötürücülük imkanlarının 5 milyon tona, Ələt Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma qabiliyyətinin 15 milyon tondan 25 milyon tona çatdırılması vurğulandı.

Orta dəhliz çərçivəsində Azərbaycan ilə Çin arasında əməkdaşlığa toxunularaq bu dəhlizin rəqəmsallaşdırılmasının onun Mərkəzi Asiya ölkələrindən Qərb istiqamətinə, eyni zamanda qərb istiqamətindən də Çinə və Mərkəzi Asiyaya yüklərin həcminin artmasına müsbət təsir göstərməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

Söhbət zamanı İqtisadiyyat Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Çinin "BYD" şirkəti arasında imzalanan və ölkəmizdə avtobus parkının yerli istehsal hesabına təmin edilməsini nəzərdə tutan Çərçivə Sazişinin önəmi bildirildi.

Görüşdə ölkələrimizin şəhərləri arasında qardaşlıq əlaqələrinə toxunularaq, Azərbaycanın 6 şəhərinin Çinin müxtəlif şəhərləri və regionları ilə əlaqələrinin olduğu vurğulandı.

Azərbaycan ilə Çin arasında humanitar, mədəni əlaqələr qeyd edildi, Heydər Əliyev Fondunun xətti ilə həyata keçirilən layihələrin əhəmiyyəti diqqətə çatdırıldı.

Turizm sahəsində əməkdaşlığın genişləndirilməsi və insanlar arasında təmasların artırılması məqsədilə Azərbaycanın birtərəfli qaydada Çin vətəndaşlarına münasibətdə vizaların aradan qaldırılması qeyd edilərək, bunun da ölkələrimiz və insanlar arasında təmaslara ciddi təkan verəcəyinə ümidvarlıq ifadə olundu. Si Cinpin dedi ki, Çin tərəfi də Azərbaycan vətəndaşlarına münasibətdə vizasız gediş-gəlişin tətbiq olunması məsələsini nəzərdən keçirəcək ki, ölkələrimiz və insanlar arasında təmaslar daha da çoxalsın.

Çin Xalq Respublikasının Sədri COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı və ölkəsinin də bu tədbirdə yüksək səviyyədə təmsil olunacağını dedi. COP29 çərçivəsində nümayəndə heyətlərimizin yaxından əməkdaşlıq etməsinin önəmi qeyd olundu.

Si Cinpin Azərbaycanın Qoşulmama Hərəkatında uğurlu sədrliyinə toxunaraq, COP29-un sədri kimi Azərbaycanın və Çinin Qlobal Cənubun bir hissəsi olduqlarını dedi.

Prezident İlham Əliyev ölkəmizin ŞƏT ilə əməkdaşlığını dəstəklədiyi kimi, BRICS-lə də əməkdaşlığının inkişafına yaxından dəstək verdiyinə görə Çinə təşəkkürünü bildirdi. Dövlətimizin başçısı qeyd etdi ki, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Sammiti 2026-cı ildə Azərbaycanda keçiriləcək. Bununla bağlı Azərbaycan ilə Çin arasında əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

* * *

Qeyd edək ki, görüş çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Çin Xalq Respublikasının Sədri Si Cinpin tərəfindən "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" qəbul olundu *(Bəyannamə qəzetin bugünkü nömrəsində dərc olunub).*

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana səfəri

# Azərbaycan dost dövlətlərlə bir sıradadır

## İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında iştirak edir

## Astanada Azərbaycan Prezidenti, Türkiyə Prezidenti və Pakistanın Baş naziri arasında üçtərəfli görüş olub

**İyulun 3-də Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif arasında üçtərəfli görüş olub.**



AZƏRTAC xəbər verir ki, söhbət zamanı Azərbaycan Prezidentinin, Türkiyə Prezidentinin və Pakistanın Baş nazirinin üçtərəfli formatda Zirvə görüşünün ilk dəfə keçirildiyi vurğulanaraq onun tarixi əhəmiyyəti qeyd olundu və bu görüşlərin bundan sonra mütəmadi xarakter daşıyacağına əminlik ifadə edildi.

Azərbaycan, Türkiyə və Pakistanın tarixi-dini köklər və qardaşlıq münasibətləri ilə bir-birinə bağlı olduğu xüsusi vurğulandı. Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində daim bir-birini dəstəklədiyi qeyd olundu və bunun gələcəkdə də davam etdirilməsinin vacibliyi bildirildi.

Azərbaycan, Pakistan və Türkiyə arasında parlamentlərin sədrləri, xarici işlər nazirləri səviyyəsində üçtərəfli formatların artıq mövcud olduğu və bu əsnada əvvəllər bir sıra görüşlərin keçirildiyi diqqətə çatdırıldı.

Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam şəkildə təmin etməsi bir daha vurğulandı. Regiondan kənar ölkələrin Cənubi Qafqazda militarizasiya siyasəti aparmasından narahatlıq ifadə edildi.

44 günlük Vətən müharibəsində qardaş Türkiyə və Pakistanın Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstək xüsusi vurğulandı. Bunun Azərbaycan xalqı və dövləti tərəfindən yüksək qiymətləndirildiyi qeyd olundu.

Ölkələrimiz arasındakı siyasi əlaqələrin ruhuna uyğun olaraq üçtərəfli formatda iqtisadi-ticari əlaqələrin, innovasiyalar, energetika, kənd təsərrüfatı, təhsil, humanitar və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı. İqtisadi-ticari əlaqələrin hazırda artan dinamikası müsbət hal kimi qeyd edildi, amma bunun ölkələrimizin potensialına tam şəkildə uyğunlaşdırılmasının vacibliyi vurğulandı.

Orta dəhlizdə Pakistanın da iştirakı qeyd edildi və bunun ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin təşviqinə töhfə verəcəyi bildirildi.

Görüşdə müdafiə və müdafiə sənayesi sahələrində əməkdaşlıq məsələlərinə toxunuldu, 2021-ci ildə üç ölkənin xüsusi təyinatlılarının iştirakı ilə "Üç qardaş" şüarı altında keçirilən təlimlərin əhəmiyyəti vurğulandı və üç ölkənin Silahlı Qüvvələri tərəfindən birgə təlimlərin bundan sonra da mütəmadi qaydada keçirilməsi təklif edildi. Təklif məmnunluqla qəbul olundu. Müdafiə sənayesi sahəsində də üç ölkənin birgə istehsalının təşkil edilməsi məsələsi vurğulandı.

Dövlətimizin başçısı Türkiyə Prezidentini və Pakistanın Baş nazirini COP29-da iştiraka bir daha dəvət etdi.

Prezident Rəcəb Tayyib Ərdoğan və Baş nazir Məhəmməd Şahbaz Şərif dəvəti məmnunluqla qəbul etdilər.

## Astanada nümayəndə heyətlərinin başçılarının şərəfinə qeyri-rəsmi şam yeməyi verilib

İyulun 3-də Astanada Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında iştirak edən nümayəndə heyətlərinin başçılarının şərəfinə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin adından qeyri-rəsmi şam yeməyi verilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

## "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında" birgə bəyannamə

*Əvvəli 1-ci səh.*

Çin tərəfi Azərbaycan tərəfinin təklif etdiyi sülh gündəliyini qətiyyətlə dəstəkləyir və konfrontasiyanın saxlanmasına yönəlmiş geosiyasi intriqaları qeyri-səmərəli hesab edir.

1.2 .Tərəflər terrorizm, separatizm və ekstremizmin bütün beynəlxalq ictimaiyyət üçün ciddi təhdidlər yaratdığını və bu çağırışların qarşısını almaq və onlara qarşı mübarizə aparmaq üçün ümumi səylərin birləşdirilməsini tələb etdiyini vurğulayırlar.

1.3 .Tərəflər milli xüsusiyyətlərinə uyğun seçilmiş inkişaf yolu boyunca bir-birilərinə qətiyyətli dəstək verməyə davam edəcək, ümumi inkişaf və firavanlığa nail olmaq üçün əməkdaşlıq etməyə hazırdırlar.

1.4 .Tərəflər milli, eləcə də regional və qlobal təhlükəsizliyin ən vacib məsələləri ilə bağlı sıx əlaqə və koordinasiya saxlamağa, etimadı möhkəmləndirməyə, öz dövlətinin ərazisindən hər hansı bir qüvvənin digər tərəfə qarşı hərəkət etmək üçün istifadə etməsinə imkan verməməyə hazırdırlar.

1.5 .Tərəflər Azərbaycan və Çinin siyasi və ictimai strukturları arasında mübadilə və əməkdaşlığın iki ölkə arasında münasibətlərin inkişafına və daha da dərinləşməsinə töhfə verdiyini vurğulayırlar. Tərəflər Azərbaycanın hakim siyasi partiyası ilə Çin Kommunist Partiyası arasında mübadilə və əməkdaşlığın möhkəmlənməsini dəstəkləyirlər.

1.6 .Tərəflər ikitərəfli əlaqələrin genişləndirilməsi və inkişafında Azərbaycan və Çin qanunverici orqanları arasında əməkdaşlığın mühüm rolunu qeyd edirlər. Tərəflər bu kontekstdə iki ölkənin qanunverici orqanları arasında müxtəlif sahələrdə və müxtəlif səviyyələrdə, o cümlədən müvafiq beynəlxalq və regional təşkilatlar çərçivəsində mübadilə və əməkdaşlığın fəallaşmasını vurğulayırlar.

1.7 .Tərəflər iki ölkənin hökumətləri arasında kommunikasiya və fikir mübadiləsi mexanizmlərini aktivləşdirməyə, inkişaf məsələlərinə dair siyasi dialoqu gücləndirməyə ehtiyac olduğunu hesab edirlər.

1.8 .Tərəflər hüquqi sahədə bərabərlik, qarşılıqlı fayda və hörmətə əsaslanan əməkdaşlığı gücləndirməyə və təcrübə mübadiləsini həyata keçirməyə hazır olduqlarını təsdiqləyirlər.

1.9 .Tərəflər, tərəflərdən birinin fikrincə iki dövlətin strateji tərəfdaşlığına və strateji münasibətlərinə xələl gətirən hər hansı bir hərəkətdən çəkinirlər.

1.10 .Tərəflər qarşılıqlı razılıq əsasında müntəzəm olaraq hər iki ölkənin Xarici İşlər nazirlikləri vasitəsilə siyasi məsləhətləşmələr aparırlar.

2.0. Tərəflər iki ölkə arasında ticarət-iqtisadi əlaqələrin davamlı və dinamik inkişafını yüksək qiymətləndirir və ticarət, sərmayə və mühəndislik layihələri sahəsində qarşılıqlı fəaliyyəti daha da gücləndirmək üçün Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyası mexanizminin rolunu artırmağa davam etməyə, o cümlədən Azərbaycan-Çin ticarət-iqtisadi əməkdaşlığının yüksək səviyyədə inkişafına nail olmaq məqsədilə nəqliyyat və kommunikasiyalar, "yaşıl enerji", emal və istehsal, infrastruktur, rəqəmsal iqtisadiyyat, kənd təsərrüfatı və s. sahələrdə layihələrin həyata keçirilməsinin təşviqinə diqqət yetirməyə hazırdırlar.

2.1. Azərbaycan və Çin güclü iqtisadi tamamlayıcılıq, sənayeləşmə və investisiya sahəsində əməkdaşlığı artırmaq üçün böyük potensiala malikdirlər. Tərəflər Azərbaycan və Çin arasında sənayeləşmə və investisiya üzrə əməkdaşlıq mexanizmindən tam istifadə edəcək, baxış, planlaşdırma və siyasət sahəsində əlaqələri artıracaq, Azərbaycan və Çin şirkətlərinin fəaliyyətini dəstəkləyəcək, enerji, o cümlədən neft və qaz hasilatı və emalı, "yaşıl enerji" və nəqliyyat infrastrukturu, informasiya və telekommunikasiya, rəqəmsal iqtisadiyyat, əlvan metallar, tikinti materialları və s. kimi prioritet sahələrdə əməkdaşlığı fəal şəkildə təşviq edəcək, bazar iqtisadiyyatı prinsipi əsasında iki ölkə arasında əməkdaşlığı reallaşdıracaq və hər iki ölkə və onların xalqları üçün faydalı nəticələr əldə edəcəklər.

2.2. Tərəflər ikitərəfli ticarətin həcmini daha da artırmağa, əmtəələrin strukturunu optimallaşdırmağa və malların bazarlara çıxışını asanlaşdırmağa hazır olduqlarını bildirirlər. Çin Azərbaycanın Çin Beynəlxalq İdxal Ekspo, Çin idxal və ixrac malları sərgisi, Çin beynəlxalq xidmət ticarət sərgisi və digər böyük sərgilərdə fəal iştirakını alqışlayır. Azərbaycan Çinin aparıcı şirkətlərinin ADEX beynəlxalq hərbi sərgisində və Azərbaycan ərazisində keçirilən digər iri sərgi və forumlarda iştirakını alqışlayır. Çin Azərbaycanın tematik təqdimatlar keçirməsini və Çin ərazisində açılan ticarət mərkəzləri və milli pavilyonlar, eləcə də Çin elektron ticarət şəbəkələri ilə əlaqə qurmasını dəstəkləyir.

2.3. Tərəflər iki ölkənin inkişaf strategiyalarının birləşdirilməsini gücləndirməyə, "Bir kəmər, bir yol" çərçivəsində bütün sahələrdə praktiki əməkdaşlığı dərinləşdirməyə, Azərbaycan və Çin hökumətləri arasında beynəlxalq multimodal daşımaların inkişafına dair Sazişin imzalanması prosesini sürətləndirməyə hazır olduqlarını bildirirlər.

2.4. Tərəflər öz ərazilərindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin təhlükəsizliyinin və fasiləsiz fəaliyyətinin təmin edilməsi məsələlərinin həllində bir-birinin səylərini dəstəkləyəcək, milli qanunvericilik və ikitərəfli sazişlər çərçivəsində tranzit daşımalar üçün əlverişli şərait yaradacaqlar.

2.5. Tərəflər intellektual nəqliyyat sistemlərinin texnologiyalarından istifadə etməklə tranzit-nəqliyyat qarşılıqlı fəaliyyətinin potensialının ardıcıl inkişafına, habelə beynəlxalq nəqliyyat marşrutlarının fasiləsiz və tammiqyaslı fəaliyyəti üçün texniki-iqtisadi şəraitin təmin edilməsinə istiqamətlənirlər.

2.6. Tərəflər Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyası çərçivəsində investisiya əməkdaşlığı üzrə işçi qrupunun yaradılmasını dəstəkləyirlər. Tərəflər həmçinin öz müəssisələrinin Azərbaycan və Çində qarşılıqlı investisiya qoyuluşu və biznesin inkişafında, o cümlədən onların rezident qismində Azərbaycan və Çinin azad iqtisadi zonalarının və sənaye parklarının fəaliyyətində qarşılıqlı iştirakını dəstəkləyirlər. Çin Azərbaycan və Çin arasında neft və qaz, neft-kimya, eləcə də "yaşıl enerji", elektrik enerjisi, yüksək texnologiyalar və innovasiyalar, süni intellekt və kosmik sahədə sərmayə əməkdaşlığının inkişafını alqışlayır. Tərəflər iki ölkənin müəssisələri üçün əlverişli şərtlər və lazımi şərait yaratmağa, iki ölkənin əməkdaşlıq layihələrinin və müəssisələrinin heyətinin təhlükəsizliyini birgə təmin etməyə hazır olduqlarını bildirirlər.

2.7. Çin tərəfi Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin ("Orta dəhliz") tikintisində və istismarında fəal iştirak etməyə, Çin-Avropa və əks istiqamətdə Cənub dəhlizinin yük qatarları üçün fasiləsiz işini və sürətləndirilmiş inkişafını birgə təşviq etmək məqsədilə Azərbaycanla və marşrutboyu yerləşən digər ölkələrlə daha sıx işləməyə, regional praktiki əməkdaşlığın dərinləşdirilməsi üçün əlverişli şərtlər yaratmağa, istehsal-təchizat zəncirlərinin təhlükəsizliyini və sabitliyini birgə təmin etməyə hazır olduğunu bildirir.

2.8. Çin tərəfi Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (UNFCCC COP29) Azərbaycanda keçirilməsini alqışlayır və Azərbaycanın konfransda müsbət nəticələrin əldə olunmasının təşviqində sədrlik rolunu dəstəkləyir. Tərəflər iqlim dəyişikliyi ilə mübarizədə, o cümlədən "yaşıl enerji" sahəsində əməkdaşlığa, iki ölkənin müəssisələrini yeni enerji mənbələrinə əsaslanan yeni istehsal, enerjinin saxlanması, yeni enerjidaşıyıcıları, elektrik enerjisinin ötürülməsi, enerjiyə qənaət və emissiyaların azaldılması və s. kimi yaşıl və aşağı karbonlu texnologiyalar sahələrində əməkdaşlığı dərinləşdirməyə təşviq etməyə, təmiz enerji sahələrində əməkdaşlıq üçün qlobal tərəfdaşlığın qurulmasını birgə təşviq etməyə hazır olduqlarını bildirirlər.

3.0. Tərəflər ticarət-iqtisadi sahədə hüquqi bazanın təkmilləşdirilməsini müzakirə etməyə, ticarət və investisiya prosedurlarının liberallaşdırılması və sadələşdirilməsi üçün institusional mexanizmin yaradılması imkanlarını fəal şəkildə araşdırmağa hazır olduqlarını bildirirlər. Tərəflər ÜTT-nin himayəsi altında çoxtərəfli ticarət sisteminə güclü dəstəyi təsdiqləyirlər. Çin tərəfi Azərbaycanın beynəlxalq çoxtərəfli ticarət sisteminin inkişafı və əməkdaşlığında fəal iştirakını, eləcə də Azərbaycanın ÜTT-yə daxil olma prosesi çərçivəsində həyata keçirdiyi tədbirləri dəstəkləyir.

3.1. Tərəflər regionlar arasında əlaqələrin genişləndirilməsini, həmçinin media və informasiya mübadiləsi sahəsində əməkdaşlığı dəstəkləyirlər.

3.2. Tərəflər elm və texnologiya sahəsində qarşılıqlı faydalı əməkdaşlığın tərəqqisini fəal şəkildə təşviq etməyə hazır olduqlarını bildirirlər.

3.3. Tərəflər hesab edirlər ki, təhsil sahəsində əməkdaşlıq sabit şəkildə inkişaf edir. Tərəflər təhsil sahəsində əməkdaşlıq haqqında saziş və təhsil sənədlərinin və elmi dərəcələrin qarşılıqlı tanınması haqqında saziş çərçivəsində kadr və dil mübadiləsini, eləcə də universitetlər arasında qarşılıqlı əlaqəni həyata keçirirlər. Tərəflər ali təhsil müəssisələrinin birgə alyansının yaradılması məsələsini müzakirə edəcəklər.

3.4. Tərəflər dil mübadiləsi sahəsində əməkdaşlığa böyük əhəmiyyət verir, təhsil müəssisələrində Azərbaycan və Çin dillərinin tədrisini təşviq edəcək və müəllimlər arasında mübadilələri və mütəxəssislərin hazırlanması təcrübəsini inkişaf etdirəcək, həmçinin Konfutsi İnstitutlarının inkişafına dəstək verəcəklər.

3.5. Tərəflər mədəniyyət sahəsində əməkdaşlığın səviyyəsinin artırılması, qarşılıqlı əsasda Azərbaycan və Çinin mədəniyyət günlərinin keçirilməsi barədə razılığa gəlib və qarşılıqlı olaraq mədəniyyət mərkəzlərinin təsis edilməsi ilə bağlı məsləhətləşmələr aparmağa hazır olduqlarını bildirirlər.

3.6. Tərəflər turizm sahəsində əməkdaşlığı gücləndirməyə və turizmin ümumi inkişafına töhfə verməyə hazır olduqlarını bildirirlər. Çin Azərbaycanın illik Çin beynəlxalq turizm yarmarkasında və digər turizm sərgilərində iştirakını, habelə Azərbaycan tərəfinin turizmin inkişafı, eləcə də iqtisadi, humanitar və mədəni əlaqələrin daha da genişləndirilməsi məqsədilə Çin vətəndaşlarına birtərəfli qaydada bir il müddətinə vizasız rejimin tətbiq edilməsi barədə qərarını alqışlayır. Tərəflər bundan sonra da vətəndaşların qarşılıqlı səfərlərinin asanlaşdırılmasına töhfə verəcəklər.

3.7. Tərəflər səhiyyə, idman və gənclər sahələrində əməkdaşlığı dərinləşdirməyə, kino, media və beyin mərkəzləri sahələrində əməkdaşlığı gücləndirməyə hazır olduqlarını bildirirlər.

3.8. Tərəflər dayanıqlı inkişaf naminə əməkdaşlığı gücləndirməyə hazırdırlar.

3.9. Tərəflər yüksəkkeyfiyyətli və tam məşğulluğun təmin edilməsi, sosial təminat sisteminin təkmilləşdirilməsi və əhalinin rifahının yüksəldilməsi üçün ixtisaslı kadrların hazırlanması məqsədilə mübadiləni gücləndirməyə hazır olduqlarını bildirirlər.

4.0. Tərəflər aktual beynəlxalq problemlər üzrə qarşılıqlı fəaliyyət göstərir, o cümlədən ikitərəfli səviyyədə, həmçinin qarşılıqlı maraq doğuran məsələlər üzrə beynəlxalq təşkilatlar və forumlar çərçivəsində konstruktiv əməkdaşlığı dərinləşdirirlər.

4.1. Tərəflər Birləşmiş Millətlər Təşkilatının himayəsi altında beynəlxalq sistemi birgə dəstəkləyəcək, beynəlxalq hüquqa əsaslanan beynəlxalq qaydaya, BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə söykənən beynəlxalq münasibətlərin əsas normalarına riayət edəcəklər. Azərbaycan və Çin hegemonluğa və güc siyasətinə qarşıdır. Tərəflər real çoxtərəfliliyə sadiqdir, Birləşmiş Millətlər Təşkilatının beynəlxalq məsələlərdə konstruktiv rolunu dəstəkləyir, həmçinin BMT çərçivəsində əməkdaşlığı gücləndirməyə davam etməyə hazırdır. Tərəflər bəşəriyyətin ümumi dəyərlərinin - sülh, inkişaf, bərabərlik, ədalət, demokratiya və azadlığın təşviqinin tərəfdarıdırlar, eyni zamanda bəşəriyyətin vahid taleli cəmiyyətinin və yeni beynəlxalq münasibətlər sisteminin yaradılmasını dəstəkləyirlər.

4.2. Azərbaycan və Çin inkişaf etməkdə olan ölkələr kimi əməkdaşlığı gücləndirməyə və inkişaf etməkdə olan ölkələrin ümumi maraqlarını birgə müdafiə etməyə hazırdırlar.

4.3. Tərəflər hesab edirlər ki, xalqın xoşbəxt həyatı insanın ən böyük hüququdur, insan hüquqlarının təşviqi işi xalqyönümlü olmalıdır. Tərəflər insan hüquqlarının qorunmasının bütün ölkələrin suverenliyinə hörmət kimi sarsılmaz prinsiplərə əsaslanmalı olması mövqeyindən çıxış edir və insan hüquqları ilə bağlı məsələlərin siyasiləşdirilməsinə və ikili standartların tətbiq edilməsinə qarşı çıxırlar. Tərəflər insan hüquqlarının müdafiəsi bəhanəsi altında hər hansı dövlətin daxili işlərinə müdaxiləyə qarşı çıxır, təhlükəsizliyin təmin edilməsi, inkişaf yolu ilə insan hüquqlarının irəlilədilməsi, əməkdaşlıq və dialoq yolu ilə insan hüquqlarının təbliğini dəstəkləyirlər, insan hüquqları sahəsində qlobal mexanizmlərin daha bərabərhüquqlu, ədalətli, səmərəli və tolerant məcrada inkişafına birgə yardım edəcəklər.

4.4. Azərbaycan Çinin təklif etdiyi qlobal inkişaf, qlobal təhlükəsizlik və qlobal sivilizasiya təşəbbüslərini dəstəkləyir və 2030-cu ilə qədər Dayanıqlı İnkişaf Gündəliyinin icrasını sürətləndirmək və beynəlxalq və regional təhlükəsizlik və sabitliyi birgə qorumaq üçün bu təşəbbüslər çərçivəsində əməkdaşlıqda fəal iştirak etməyə hazır olduğunu bildirir. Çin mədəniyyətlərarası dialoqun təşviqi üçün qlobal platforma kimi Azərbaycanın "Bakı Prosesi" təşəbbüsünü və onun çərçivəsində toplanan Ümumdünya Forumları ilə bağlı səylərini dəstəkləyir.

4.5. Çin tərəfi Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) çərçivəsində əməkdaşlığı gücləndirmək səylərini alqışlayır, ŞƏT-də Azərbaycanın hüquqi statusunun yüksəldilməsini dəstəkləyir. Azərbaycan tərəfi BRICS-ə daxil olmaq arzusunu ifadə edir və Çin tərəfi BRICS əməkdaşlığında Azərbaycanın iştirakını alqışlayır.

*3 iyul 2024-cü il".*

# Azərbaycan-Belarus əməkdaşlığı uğurla inkişaf edir

## Belarus Respublikasının Prezidenti zati-aliləri cənab Aleksandr Lukaşenkoya

Hörmətli Aleksandr Qriqoryeviç!

Dövlət bayramı - Belarus Respublikasının Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi və ən xoş arzularımı qəbul edin.

Möhkəm dostluq əlaqələrinə, etimada və qarşılıqlı dəstəyə əsaslanaraq son onilliklər ərzində qardaş ölkələrimiz strateji tərəfdaşlığın çoxtərəfli münasibətlərini qurublar. Sizin Azərbaycana bu yaxınlarda etdiyiniz dövlət səfəri, keçirilən görüşlər və imzalanan sənədlər bir daha sübut etdi ki, Azərbaycanla Belarus arasında mövcud olan yaxşı əməkdaşlıq ənənələri bu gün uğurla inkişaf edir və yeni məzmunla zənginləşir.

Əminəm ki, bizim birgə səylərimiz gələcəkdə də Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında dost xalqlarımızın və ölkələrimizin maraqları naminə qarşılıqlı faydalı əməkdaşlığın inkişafına və möhkəmlənməsinə kömək edəcək perspektivli təşəbbüslərin və layihələrin həyata keçirilməsinə yönəldiləcək.

Hörmətli Aleksandr Qriqoryeviç, bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə uğurlar, Belarus Respublikasına isə əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı, 1 iyul 2024-cü il*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 323** **QƏRAR** **Bakı şəhəri, 29 iyun 2024-cü il**

## “Ordubad” Dövlət Tarix-Mədəniyyət Qoruğunun sərhədləri və mühafizə zonasının və ərazisinin xüsusi rejiminin təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 21 fevral tarixli 15 nömrəli Sərəncamının 2.1-ci və 2.2-ci bəndlərinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun sərhədləri və mühafizə zonası" təsdiq edilsin *(1 nömrəli əlavə).*
2. "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun ərazisinin xüsusi rejimi" təsdiq edilsin *(2 nömrəli əlavə).*

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 324** **QƏRAR** **Bakı şəhəri, 1 iyul 2024-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 may tarixli 165 nömrəli Qərarı ilə təsdiq edilmiş “Məhkəmə ekspertlərinin attestasiyasının keçirilməsi və ixtisas dərəcəsinin verilməsi qaydaları”nda və 2023-cü il 25 may tarixli 166 nömrəli Qərarı ilə təsdiq edilmiş “Məhkəmə eksperti şəhadətnaməsinin verilməsi qaydası”nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1062-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1997-ci il 25 iyul tarixli 622 nömrəli, "Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 15 yanvar tarixli 252 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 25 yanvar tarixli 2452 nömrəli Fərmanının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 may tarixli 165 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 5, maddə 732 (Cild I) ilə təsdiq edilmiş "Məhkəmə ekspertlərinin attestasiyasının keçirilməsi və ixtisas dərəcəsinin verilməsi qaydaları"nın 1.5-ci bəndinə "Səhiyyə Nazirliyinin" sözlərindən sonra ", Azərbaycan Respublikası Müdafiə Nazirliyinin" sözləri əlavə edilsin.
2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 may tarixli 166 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 5, maddə 733 (Cild I) ilə təsdiq edilmiş "Məhkəmə eksperti şəhadətnaməsinin verilməsi qaydası"nın 1.2-ci bəndinə "Səhiyyə Nazirliyi" sözlərindən sonra ", Azərbaycan Respublikasının Müdafiə Nazirliyi" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 325** **QƏRAR** **Bakı şəhəri, 1 iyul 2024-cü il**

## “Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını tənzimləyən normativ hüquqi aktlara və taksi minik avtomobillərinin sürücüləri üçün etik davranış və avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair xüsusi hazırlığın qiymətləndirilməsinin nəticələrinə dair sənədin forması və qiymətləndirilmənin aparılmasına görə haqqın məbləği”nin təsdiq edilməsi haqqında

"Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 973-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2008-ci il 4 iyul tarixli 792 nömrəli, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1016-VQD nömrəli Qanununun tətbiqi və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" 2018-ci il 17 aprel tarixli 1926 nömrəli, "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin fəaliyyətinin təmin edilməsi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" 2011-ci il 20 iyul tarixli 472 nömrəli, "Sumqayıt şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2015-ci il 7 dekabr tarixli 704 nömrəli və "Gəncə şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2016-cı il 25 yanvar tarixli 750 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" 2022-ci il 8 sentyabr tarixli 1842 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 avqust tarixli 2300 nömrəli Fərmanının 2.1.7-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə dair xüsusi hazırlığının qiymətləndirilməsinin nəticələrinə dair sənədin forması" təsdiq edilsin (1 nömrəli əlavə).
2. "Taksi minik avtomobillərinin sürücülərinin etik davranış və avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair xüsusi hazırlığının qiymətləndirilməsinin nəticələrinə dair sənədin forması" təsdiq edilsin (2 nömrəli əlavə).
3. Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə dair hazırlıqlarının, habelə taksi minik avtomobillərinin sürücülərinin etik davranış və avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair xüsusi hazırlıqlarının qiymətləndirilməsinin aparılmasına görə haqqın məbləği 35 (otuz beş) manat təsdiq edilsin.
4. Bu Qərar "Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair hazırlıq üzrə Xüsusi Proqram"ı bitirmək haqqında müvafiq şəhadətnamələrə malik şəxslərə şəhadətnamənin etibarlılıq müddətinin sonunadək və 2024-cü il 1 iyul tarixinədək "Taksi minik avtomobillərinin sürücüləri üçün etik davranış və avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair xüsusi hazırlıq" keçmiş şəxslərə şamil edilmir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Baş prokuror Lerik rayonunda vətəndaşları qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**



İyulun 3-də baş prokuror Kamran Əliyev Lerik rayon prokurorluğunun inzibati binasında Lerik, Lənkəran, Astara rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 32 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb, eləcə də prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair təklifləri dinləyib.

# DTX-nin Akademiyasında növbəti məzun buraxılışı olub

**İyulun 3-də Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Heydər Əliyev adına Akademiyasında (Akademiya) növbəti məzun buraxılışına həsr olunmuş təntənəli tədbir keçirilmişdir.**



Tədbirdə DTX-nin rəisi general-polkovnik Əli Nağıyev, xidmətin rəhbər əməkdaşları, təhlükəsizlik orqanlarının veteranları, akademiyanın professor-müəllim heyəti və valideynlər iştirak etmişlər.

Öncə Ulu Öndər Heydər Əliyevin akademiyanın ərazisində ucaldılmış abidəsi ziyarət olunaraq önünə gül dəstələri düzülmüşdür. Daha sonra Azərbaycan Respublikasının ərazi bütövlüyü və müstəqilliyi uğrunda həlak olmuş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilmişdir.

Təntənəli tədbir məzunlara diplomların təqdim olunması mərasimi ilə davam etmiş, ardınca DTX-nin rəisi general-polkovnik Əli Nağıyev giriş nitqi ilə çıxış etmişdir.

Azərbaycan təhlükəsizlik orqanlarının fəxri rəhbəri, dahi şəxsiyyət Heydər Əliyevin adını daşıyan akademiyada təhsillərini uğurla başa vurmaları ilə bağlı məzunlara təbriklərini çatdıran xidmət rəisi DTX-nin gələcək zabit əməkdaşlarının Vətənə və xalqa dönməz sədaqətlə xidmət edəcəklərinə, dövlətimizin təhlükəsizliyinin keşiyində hər zaman ayıq-sayıq duracaqlarına, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin əvəzsiz səyləri nəticəsində müasir çağırışlara uyğun formalaşdırılmış milli təhlükəsizlik konsepsiyasının müvəffəqiyyətlə reallaşdırılması istiqamətində üzərilərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəklərinə, ölkənin təhlükəsizliyinin etibarlı təminatı naminə var qüvvə ilə çalışacaqlarına inamını ifadə etmişdir.

General-polkovnik Əli Nağıyev bildirmişdir ki, yüksəkixtisaslı kadrlarla komplektləşdirilmiş və maddi-texniki bazası davamlı yenilənən akademiyada keyfiyyətli təhsil alınması üçün tədris prosesi ilbəil təkmilləşdirilir, xüsusi təyinatlı təhsil müəssisəsinin infrastrukturu çağdaş tələblərə uyğun şəkildə yenidən qurulur. Sadalanan amillərlə yanaşı, akademiyada kursant adına yiyələnmək istəyənlər arasında ciddi seçim aparılır, bu proses çərçivəsində yalnız qənaətbəxş səviyyədə bilik və bacarıqları olan, gələcəyi böyük potensial vəd edən gənclərə üstünlük verilir. Son illərdə görülən bu məqsədyönlü tədbirlərin nəticəsidir ki, yüksək bal toplayaraq akademiyaya daxil olan kursantların sayı hər ötən il daha da artır və onlar respublika üzrə keçirilən müxtəlif bilik yarışlarında birincilik qazanırlar.

Tədbirin digər çıxışçıları kursantların peşəkar zabit kimi yetişmələri üçün akademiyada yaradılan hərtərəfli şəraitə görə DTX-nin və akademiyanın rəhbərliyinə minnətdarlıq etmiş, övladlarının dövlətimizə təhlükəsizlik orqanı əməkdaşı kimi xidmət edəcəklərinə görə qürur və şərəf hissi keçirdiklərini bildirmişlər.

Sonda xatirə fotoşəkli çəkdirilmişdir.

***Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidməti***

# Bakıda "Ətraf mühit, sosial və idarəetmə" sammiti işə başlayıb

**İyulun 3-də Birləşmiş Millətlər Təşkilatının Azərbaycan nümayəndəliyi və "PwC Azərbaycan" şirkətinin birgə təşkilatçılığı ilə Bakıda "Ətraf mühit, sosial və idarəetmə (ESG)" sammiti işə başlayıb.**

AZƏRTAC xəbər verir ki, "29 İqlim söhbəti: COP29-a aparan yol" təşəbbüsü çərçivəsində "Dayanıqlı inkişaf naminə dövlət-özəl tərəfdaşlıqları" mövzusunda keçirilən sammit Azərbaycanın 2024-cü ilin noyabrında evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişikliyi Konfransına (COP29) həsr olunub.

Sammitin məqsədi qlobal iqlim problemlərini həll etmək üçün ESG prinsiplərinin inteqrasiyasının təşviqi, dövlət və özəl qurumlar arasında dialoq və əməkdaşlığı inkişaf etdirməkdir.

Əsas mövzular arasında ESG-yə uyğunluğun təşviqi və genişləndirilməsində normativ aktların və standartların rolunu müzakirə etmək, dayanıqlı inkişafa effektiv töhfə vermiş uğurlu PPP (dövlət-özəl tərəfdaşlığı) modellərini vurğulamaq, dayanıqlı inkişaf naminə dövlət-özəl tərəfdaşlıqlarının qurulmasında qarşıya çıxan problemləri aşkarlamaq və iqlim məqsədlərinə nail olmaq üçün konkret tədbirlər həyata keçirmək yer alıb.

Sammitdə çıxış edən ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev bildirib ki, özəl sektorun öz ambisiyalarını yüksəltməsi və kollektiv tərəqqi üçün davamlılıq öhdəliklərini sürətləndirməsi lazımdır: "Biz birgə işləməklə dövlət və özəl qurumların ESG-nin həyata keçirilməsində anlayışlar, strategiyalar və ən yaxşı təcrübələri paylaşa biləcəyi əməkdaşlıq mühitini inkişaf etdirmək səylərini dəstəkləyə bilərik. Ortaq problemlərimiz üçün işlək həll yolları tapılması məqsədilə özəl sektora ehtiyacımız var. Biz maliyyə planları, büdcələri və hədəfləri ilə dəstəklənən etibarlı keçid yollarını qəbul etməliyik. Ümid edirik ki, şirkətlər kapitalı necə bölüşdürdükləri və investisiya qərarlarının iqlim məqsədlərimizə uyğun olmasını necə təmin etdiklərini göstərə biləcək şəkildə COP29-a hazır gələ bilərlər".

Nazir qeyd edib ki, iqlimə müsbət təsir göstərən iqtisadi modellər yarada bilmək məqsədilə "yaşıl kapital" bazarlarını dərinləşdirmək üçün maliyyə xidmətləri sənayesinə ehtiyac var.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin sektor müdiri, Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Katibliyinin rəhbəri Vüsal Şıxəliyev çıxış edərək deyib: "Bu il ictimaiyyətə və biznes nümayəndələrinə ESG prinsipləri üzrə güzəşt və imtiyazlar təqdim etməyə çalışırıq. Çalışırıq ki, ESG üzrə bütün tərəflərin aktiv iştirakı üçün şərait yaradaq. ESG elementlərinin təşviqi baxımından biznes mühitinin yaxşılaşdırılması əsas prioritet hədəflərin tərkib hissəsini təşkil edir".

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədovun sözlərinə görə, ESG Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq istiqamətində fəaliyyətin və tərəqqinin sürətləndirilməsi üçün platforma rolunu oynayır. Bu gün dövlət və özəl sektor arasında əməkdaşlığın gücləndirilməsi həmişəkindən daha vacibdir.

Nazir müavini qeyd edib ki, Azərbaycan dayanıqlı inkişaf məqsədləri ilə bağlı üzərinə öhdəlik götürüb: "Bugünkü işimiz inklüzivliyi, səmərəliliyi və dayanıqlılığı təşviq edir. ESG tərəfində hesabatlılıq və şəffaflığa gəldikdə qeyd etmək istərdim ki, Azərbaycan Dayanıqlı İnkişaf üzrə 7 Milli Hesabatını təqdim edən dünyanın bir neçə ölkəsi sırasındadır və dünyanın beş ölkəsindən biri 4-cü Könüllü Milli İcmalını təqdim etmək niyyətindədir".

Sahib Məmmədov bildirib ki, Azərbaycanda ətraf mühit, sosial və idarəetmə çərçivələrinin ümumiləşdirilməsi davamlı və məsuliyyətli biznes təcrübələrinin ölkənin korporativ və maliyyə sistemlərinə inteqrasiyasını nəzərdə tutur.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədovun sözlərinə görə, keçən il KOBİA tərəfindən cəlb edilən peşəkar sorğu şirkəti Azərbaycanda ESG-nin cari vəziyyətini göstərən ilk genişmiqyaslı sorğu aparıb: "Sorğu ölkənin bütün ərazisini və müxtəlif sektorları əhatə etməklə 300-ə yaxın respondent arasında keçirilib və ESG sahəsində mövcud statusun öyrənilməsi baxımından ilk əhatəli araşdırma hesab oluna bilər. Sorğunun göstəricilərinə əsasən, ESG prinsipləri barədə ölkədəki məlumatlılıq səviyyəsi 7 faiz, tətbiq səviyyəsi isə 3,5 faiz təşkil edir. Təchizatçı seçimində ESG prinsiplərini nəzərəalma səviyyəsi 2,5 faiz, ESG prinsipləri barədə hesabatlılıq səviyyəsi 1,4 faizdir".

Onun sözlərinə görə, sorğu ESG tətbiqinin ilkin ehtiyaclarını da müəyyən edir ki, bunlara detallı izahlar, əlavə bilik və bacarıqlar və insan resursları daxildir. İkinci dərəcəli ehtiyaclar isə vergi güzəştləri, subsidiyalar, qanunvericilik dəyişiklikləri və güzəştli kreditlərdir.

BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Vladanka Andreeva dayanıqlı inkişaf məqsədlərinə nail olmaqda dövlət və özəl sektorlar arasında əməkdaşlığın həlledici rolunu vurğulayıb.

O bildirib ki, ESG təcrübələrinin inteqrasiyası təkcə uyğunluqdan ibarət deyil - bu, dəyər yaratmaq, riskləri idarə etmək və gələcək nəsillər üçün dayanıqlı gələcəyə töhfə verməkdən ibarətdir.

"PwC"nin Azərbaycan üzrə idarəedici partnyoru Shaukat Tapia çıxışında deyib: "Biz ESG prinsiplərinin biznes strategiyalarına inteqrasiyasının uzunmüddətli uğur və dayanıqlılıq üçün vacib olduğunu hesab edirik. Bu sammit iqlim dəyişikliyi ilə bağlı mürəkkəb problemlərin həlli üçün çox vacib olan dövlət-özəl əməkdaşlığının təşviqi üçün mühüm platforma təqdim edir. Birlikdə işləməklə biz dayanıqlı inkişafı dəstəkləyən, maraqlı tərəflərin inamını artıran və təsir göstərən möhkəm çərçivələr yarada bilərik. Burada paylaşılan fikirlər və strategiyalar Azərbaycan şirkətlərinə ESG səyahətlərində yol göstərmək və daha möhkəm gələcəyə töhfə verməkdə mühüm rol oynayacaq".

Sonra "Yaşıl gündəliy"in müxtəlif perspektivləri" sessiyası keçirilib. Sessiyada iqlimlə bağlı fəaliyyətdə dövlət-özəl sektor sinerjisi, SDG investor platforması və yaşıl inkişafı təşviq etmək məqsədilə strategiyalar mövzusunda təqdimatlarla çıxışlar edilib. BMT-nin iqlim dəyişikliyi üzrə yüksəksəviyyəli çempionu Nigar Arpadarai və digərlərinin məruzələri dinlənilib.

Daha sonra "Azərbaycan hökumətinin siyasətlərinə və korporativ strategiyalarına ESG-nin inteqrasiyası" və "Özəl sektor perspektivi" mövzularında keçirilən panel müzakirələrində ESG prinsiplərinin Azərbaycanın hökumət siyasətinə və korporativ strategiyalarına inteqrasiyasına dair müzakirələr aparılıb.

"Ətraf mühit, sosial və idarəetmə" sammiti iyulun 4-də işini davam etdirəcək.

# 1 sentyabr Milli Məclisə seçkilər günüdür

## Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası olub






**İyulun 3-də Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin növbəti iclası keçirilib.**

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qeyd edib ki, Azərbaycan olduqca mühüm ictimai-siyasi proses ərəfəsindədir: "Bildiyiniz kimi, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə VI çağırış Azərbaycan Respublikası Milli Məclisi buraxılıb və növbədənkənar seçkilər 2024-cü il sentyabrın 1-nə təyin edilib".

Dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin böyük inkişaf yolu keçdiyini deyən YAP Mərkəzi Aparatının rəhbəri qeyd edib ki, dövlətimizin və xalqımızın qarşısındakı ən ümdə vəzifənin yerinə yetirilməsi - Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin təmin edilməsi müasir dövlətçilik tariximizin ən şərəfli səhifəsi və möhtəşəm tarixi nailiyyətimizdir. YAP Sədrinin müavini vurğulayıb ki, ölkəmizin qarşısında növbəti strateji hədəflərin gerçəkləşdirilməsi vəzifəsi dayanır.

YAP-ın avanqard siyasi qüvvə olaraq hər zaman ictimai-siyasi proseslərin önündə getdiyini söyləyən Tahir Budaqov partiyanın qarşıdan gələn parlament seçkilərinə də yüksək səviyyədə hazırlaşdığını qeyd edib.

Daha sonra iclasın gündəliyində olan məsələlər haqqında məlumat verilib.

İclasda ilk olaraq "Azərbaycan Respublikasının Milli Məclisinə 2024-cü il sentyabrın 1-nə təyin edilmiş növbədənkənar seçkilərlə əlaqədar Yeni Azərbaycan Partiyasının Tədbirlər Planı" müzakirə edilərək təsdiq olunub.

Sonra Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının yaradılması və onun tərkibinin təsdiq edilməsi məsələsi müzakirə olunub. Müzakirələrdən sonra 21 nəfərdən ibarət YAP Mərkəzi Seçki Qərargahının yaradılması haqqında qərar qəbul olunub.

İdarə Heyətinin qərarı ilə Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi də təyin olunub, səsvermə gününədək seçki komissiyalarının iclaslarını müşahidə edəcək şəxslər müəyyən edilib.

İclasın sonunda YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Yeni Azərbaycan Partiyasının parlament seçkilərinə qələbə əzmi ilə qatıldığını vurğulayıb və bu prosesdə partiya üzvlərinə uğurlar arzulayıb.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan "*

## Qarabağ və Şərqi Zəngəzurda ikinci seçki keçiriləcək

### Növbədənkənar seçkilərin təyin edilməsi həm də COP29 hazırlığına dəstək addımıdır

**"Növbədənkənar parlament seçkilərinin təyin edilməsi çox məqsədəuyğun addımdır. Bildiyimiz kimi, bu ilin noyabrında Azərbaycan beynəlxalq əhəmiyyətli, mötəbər tədbirə evsahibliyi edəcək".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Jalə Əliyeva deyib. O bildirib ki, payızda keçiriləcək bir sıra əhəmiyyətli tədbirləri nəzərə alaraq Mili li Məclisin əksər deputatları parlament seçkilərinin daha erkən keçirilməsi ilə bağlı Prezidentə müraciət etdilər. Daha sonra Prezidentin bununla bağlı müraciətinə Konstitusiya Məhkəməsi tərəfindən müsbət rəy verildi. Prezident sentyabrın 1-nə növbədənkənar parlament seçkilərini təyin etdi. "Milli Məclisə növbəti seçkilərin COP29 konfransı ilə eyni ərəfəyə düşməsi bu beynəlxalq tədbirin təşkilati işlərinə çətinlik yarada bilərdi. Odur ki, qərar vaxtında verildi. Bizim üçün ölkəmizin, dövlətimizin maraqları hər şeydən vacib və olduqca əhəmiyyətli amildir", - deyə o bildirib.

J.Əliyeva qeyd edib ki, bu parlament seçkiləri eyni zamanda 30 illik fasilədən sonra ərazi bütövlüyü tam təmin olunmuş, suverenliyi bərqərar edilmiş, işğaldan azad olunmuş torpaqlar da daxil olmaqla, respublikamızın bütün ərazilərində keçiriləcək. 44 günlük Vətən müharibəsində əldə edilən qələbədən sonra bu, Qarabağ və Şərqi Zəngəzurda keçiriləcək ikinci seçki olacaq.

Deputat xatırladıb ki, bu ilin fevral ayında növbədənkənar prezident seçkiləri baş tutub və xalqımız bu qürurlu anı yaşayıb. İndi isə ərazi bütövlüyü tam təmin olunmuş bütöv Azərbaycanda növbədənkənar parlament seçkiləri keçiriləcək: "Biz, sadəcə, torpaqlarımızı işğaldan azad etməmişik, bu torpaqlara həm də yeni nəfəs, yeni səs, ab-hava gətirmişik. İşğaldan azad olunmuş torpaqların əzəli sakinləri artıq mərhələli şəkildə öz ata-baba yurdlarına böyük qürurla, sevinclə qayıdırlar. Vətəndaşlarımızın 30 ildən sonra xilaskar Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sayəsində bərpa edilən bütün hüquqlarının içərisində, onların seçmək və seçilmək hüququnun da bərpa edilməsi ikiqat sevindirici və qürurvericidir".

J.Əliyeva vurğulayıb ki, bu baxımdan Milli Məclisə növbədənkənar seçkilərin təyin edilməsi həm ölkəmizdə keçiriləcək beynəlxalq tədbirin hazırlıq işlərinə dəstək addımı kimi, həm də seçkilərin bütün suveren ərazilərimizə şamil edilməsi baxımından əhəmiyyətlidir. Vaxt amili seçki prosesinin daha rahat, şəffaf və demokratik şəraitdə keçirilməsinə imkan yaradacaq. Parlament seçkilərindən sonra isə Azərbaycan bütün diqqətini tamamilə mötəbər tədbirin - COP29-un hazırlıq işlərinə yönəldəcək.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Zamanında verilən doğru qərar

### Parlament seçkiləri COP29-un yüksək səviyyədə keçirilməsinə şərait yaradacaq

**"Növbədənkənar parlament seçkilərinin təyin olunması çox vacib idi. Əslində, parlamentə növbəti seçkilər noyabr ayında keçirilməli idi və bu, konstitusiyanın tələbindən irəli gəlirdi. Amma noyabrın əvvəlində Azərbaycanda dünya əhəmiyyətli COP29 tədbirinin baş tutması və seçkilərlə beynəlxalq konfransın üst-üstə düşməsi müəyyən problemlər yarada bilərdi".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Aydın Mirzəzadə deyib. Deputat bildirib ki, yarana biləcək problemin həlli üçün parlament seçkilərinin konstitusiyaya uyğun olaraq ertələnməsi qərara alınıb. Buna görə parlamentdə çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasının üzvləri müvafiq məktubla Prezidentə müraciət etdilər. Konstitusiya Məhkəməsi Prezidentin müraciətinə müsbət rəy verdikdən sonra seçkilər sentyabrın 1-nə təyin edildi. "Bu, seçkilərin demokratik, şəffaf, azad keçirilməsinə imkan verəcək. Bundan sonra isə COP29 konfransına hazırlıq işləri görüləcək. Nəzərə almaq lazımdır ki, beynəlxalq tədbirin həm hazırlıq mərhələsində, həm də konfrans ərəfəsində parlament üzvləri səlahiyyətləri çərçivəsində tədbirlərdə iştirak etməlidirlər. Bunları da nəzərə alsaq, seçkilərin vaxtının irəli çəkilməsinin daha məqsədəuyğun olması təsdiqlənər".

Deputat vurğulayıb ki, tədbirə hazırlıq dövründə paytaxtda və regionlarda müəyyən məhdudiyyətlər tətbiq edilə bilər. Hökumət ancaq konfransa hazırlıqla məşğul olacaq. Bu isə oktyabr, noyabr aylarında Milli Məclisdə dövlət büdcəsinin müzakirəsini qeyri-mümkün edəcəkdi. Bu baxımdan parlament seçkilərinin tez keçirilməsi həm seçki prosesinin rahat baş tutmasına, həm büdcənin konfransa qədər müzakirədən keçməsinə, həm də tədbirin yüksək səviyyədə təşkilinə şərait yaradacaq.

A.Mirzəzadə qeyd edib ki, növbədənkənar parlament seçkilərinin keçirilməsinə siyasi qüvvələrdən heç bir etiraz olmayıb. Hazırda seçki prosesinə ciddi hazırlıq işləri gedir. Partiyaların bir qismi namizədlərini irəli sürüblər və bu proses davam etməkdədir.

Deputat sonda sentyabrda keçiriləcək parlament seçkilərinin də əvvəlkilər kimi şəffaf və demokratik şəraitdə baş tutacağına inamını ifadə edib.

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Qüdrətli ordu, modern hərbi arsenal

**Prezident İlham Əliyev 2024-cü ilin dövlət büdcəsinə dəyişiklikləri təsdiq edib. Dəyişikliklərə əsasən, dövlət büdcəsinin xərcləri 40 milyard manata yaxınlaşıb. Artırılan xərclər bir sıra istiqamətlərə, o cümlədən Qarabağ və Şərqi Zəngəzurun bərpasına və müdafiə xərclərinə yönəldilib.**



### Silahlı Qüvvələrin arsenalı zənginləşdirilir

44 günlük Vətən müharibəsindən sonra Azərbaycan Silahlı Qüvvələrinin modernləşdirilməsi prosesi yeni inkişaf müstəvisinə qədəm qoyub. Bu sahədə həyata keçirilən uğurlu islahatlar, planlı və ardıcıl şəkildə gerçəkləşdirilən işlər sayəsində Silahlı Qüvvələrimiz dünyanın ən qüdrətli hərbi gücləri sırasına yüksəlib. Təsadüfi deyil ki, nüfuzlu "Global Fire Power" mərkəzinin 55 göstərici əsasında hazırladığı hesabatda Azərbaycan Ordusu Cənubi Qafqazda birinci, dünyada isə ilk əlli ordu sırasında qərarlaşıb. 44 günlük müharibədə göstərdiyi misilsiz hünərlə adını dünya hərb tarixinə qızıl hərflərlə yazdıran Azərbaycan Ordusu hər ötən gün daha da güclənir. Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev də çıxışlarında məhz bu məqama diqqət çəkərək xüsusi vurğulayıb ki, ordumuz müharibə dövründə olduğundan daha da güclüdür.

Ərazilərimizin işğal altında olduğu dövrdə ordunun döyüş qabiliyyətinin güclənməsi Azərbaycan dövlətinin qarşısına qoyduğu əsas vəzifə idi. Bu istiqamətdə görülən işlərin parlaq nəticəsi şanlı ordumuzun qazandığı parlaq zəfərin timsalında aydın görünür. 2020-ci ildə cəmi 44 gün ərzində havada da, quruda da düşmənin canlı qüvvəsini, hərbi texnikasını məhv edən Silahlı Qüvvələrimiz ilk "smart müharibə" aparan ordu kimi də adını dünyanın hərb salnamələrinə yazıb.

Postmüharibə dövründə də Silahlı Qüvvələrin gücləndirilməsi prioritetdir. 44 günlük müharibədən sonra da hərbi islahatların davam etdirilməsi, yeni silahlı birləşmələrin yaradılması, müasir silahlar və texnika ilə təchizatı, hərbi təlimlər və sair işlər ordumuzun döyüş qabiliyyətinin yüksəlməsinə xidmət edir. Silahlı Qüvvələrimizin arsenalı Azərbaycanın müdafiə sənayesinin istehsal etdiyi hərbi texnika və silah-sursatlarla yanaşı, xarici ölkələrin hərbi sənayesinin məhsulları ilə daha da zənginləşdirilir. Bu sırada 2024-cü ilin əvvəlində qardaş Türkiyənin "Baykar" şirkətinin "Akıncı" hücum PUA-sının Hərbi Hava Qüvvələrinin hərbi obyektlərində silahlanmaya qəbul edilməsinin böyük əhəmiyyəti var.

Bu il iyunun 26-da - Silahlı Qüvvələr Günündə Heydər Əliyev Beynəlxalq Aeroportunda Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə İtaliyanın "Leonardo" şirkətinin istehsalı olan "C-27J Spartan" tipli hərbi nəqliyyat təyyarəsi təqdim olundu. Bu təyyarə mürəkkəb coğrafi relyef və əməliyyat şəraitində həm müdafiə, həm də mülki müdafiə tapşırıqlarını yerinə yetirməyə qadirdir. "C-27J Spartan" tipli təyyarədən hərbi nəqliyyat, paraşütçülərin və yüklərin havadan atılması, eləcə də tibbi tapşırıqların yerinə yetirilməsi əməliyyatlarında istifadə olunacaq.

### Təcrübə də, nöqsanlar da öyrənilir

Ordumuzun Vətən müharibəsində işlətdiyi hərbi taktika, modern silahlardan sərrast istifadəsi, ümumiyyətlə, əzəmətli güc və yüksək ruh nümayiş etdirərək qazandığı qələbə dünya tərəfindən böyük maraq və qibtə ilə qarşılandı. Buna görədir ki, Vətən müharibəsində ordumuzun həyata keçirdiyi hərbi əməliyyatlar bir sıra ölkələr tərəfindən öyrənilir, hərbi dərsliklərdə istifadə olunur.

Bir başqa reallıq isə ondan ibarətdir ki, Vətən müharibəsində Silahlı Qüvvələrimiz tərəfindən nümayiş etdirilən dünyaya örnək mükəmməl hərbi performans ölkəmizdə də hərbi mütəxəssislər tərəfindən diqqətlə araşdırılır. Yəni Azərbaycan Ordusu daim özünü inkişaf etdirir.

Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov Silahlı Qüvvələr Günü ərəfəsində verdiyi müsahibəsində də bildirib ki, müharibə vaxtı əldə edirmiş təcrübə və nöqsanlar öyrənilir: "İstifadə etdiyimiz silahları da öyrənirik - onların hansının tətbiqi bizə daha çox fayda gətirdi, hansılar döyüşlərdə özünü çox da yaxşı göstərmədi. Təbii ki, biz nəticələr çıxardıq və onları dəyişdik".

Nazir əlavə edib ki, bütün bu təhlillər göstərdi ki, müharibədəki bütün o təcrübənin tətbiqindən sonra artıq antiterror əməliyyatı zamanı qısa müddətdə düşmən darmadağın edildi: "Bu antiterror əməliyyatına dünyada unikal əməliyyat kimi baxırlar, onunla maraqlanırlar. Çox sevindirici haldır ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun əməliyyatları bu gün bütün dünyada dərindən öyrənilir".

### Büdcənin əsas çağırışlarından biri müdafiə və təhlükəsizlikdir

Azərbaycan Ordusunun modernləşdirilməsi, gücləndirilməsi istiqamətində işlər məqsədyönlü şəkildə davamlı olaraq həyata keçirilir. Ölkənin müdafiə potensialının gücləndirilməsinin və silahlı qüvvələrin maddi-texniki təminatının daha da yaxşılaşdırılmasının dövlət büdcəsinin prioriteti olması da buna əyani nümunədir. 2024-cü ilin dövlət büdcəsindən ölkənin müdafiə xərcləri üçün 6 milyard 421 milyon manat vəsait yönəldilmişdi.

2024-cü il dövlət büdcəsinə edilən dəyişikliklərdən sonra müdafiə və milli təhlükəsizlik xərcləri 7 milyard 126,3 milyon manata çatdırılıb.

Görülən bütün bu əsaslı və hərtərəfli işlərin nəticəsidir ki, bu gün Azərbaycan Ordusu istənilən güclərə qarşı layiqli mübarizə apararaq qalib gəlmək əzmində olan dünyanın qüdrətli ordusuna çevrilib.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Azərbaycanın xarici siyasətinin uğurları

## İrəvan Azərbaycana qarşı ərazi iddialarına son qoymalıdır



**"Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində Azərbaycan dünyanın ən sabit və təhlükəsiz dövlətlərindən birinə çevrilib. Dünya ölkələri ilə bərabərhüquqlu və qarşılıqlı etimada əsaslanan münasibətlərin qurulması, beynəlxalq təşkilatlarla səmərəli əlaqələrin yaradılması, yeni tərəfdaşların tapılması və yüksəksəviyyəli əməkdaşlığın həyata keçirilməsi, mehriban qonşuluq siyasətinin formalaşdırılması, beynəlxalq ədalətin təmin olunması Azərbaycanın yürütdüyü xarici siyasətin əsas istiqamətləridir".**

Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Kamran Bayramov deyib. Deputat xatırladıb ki, 44 günlük Vətən müharibəsi sona çatdıqdan sonra qalib tərəf olmasına baxmayaraq, Azərbaycan Ermənistanla sülh sazişi ilə bağlı danışıqlara başlamaq təşəbbüsünü irəli sürüb və baza prinsiplərini, sülh sazişinin layihəsini hazırlayıb. Bəzi dövlətlər Ermənistana dəstək verərək Cənubi Qafqazda qalıcı sülhü əngəlləməyə çalışsalar da, hazırda iki ölkə arasında vasitəçilərsiz danışıqlar gedir. Bu isə o deməkdir ki, sülhə və əməkdaşlığa doğru indi daha böyük inamla gedirik.

K.Bayramov qeyd edib ki, Ermənistanın və onun Avropadakı havadarlarının ara qarışdırmasına baxmayaraq, rəsmi Bakı bütün görüş və toplantılarda sülh çağırışlarına sadiqliyini nümayiş etdirir: "Azərbaycan regional sabitliyin, təhlükəsizliyin təmini məqsədilə İrəvana sülh, əməkdaşlıq təklifləri edir. Prezident İlham Əliyev Kanada səfirinin etimadnaməsini qəbul edərkən də sülhlə bağlı bir sıra məsələlərə yenidən toxundu. Dövlət başçısı bildirdi ki, hazırda ikitərəfli səviyyədə daha yaxşı nəticələr görürük. Kiminsə tərəfindən bu prosesə müdaxilə yoxdur. Sərhədlərin delimitasiyası, hətta nadir hal olan demarkasiya məsələlərində razılıqlara gələ bilirik. Prezident İlham Əliyev qeyd etdi ki, hələ sülh müqaviləsi imzalanmayıb, lakin artıq sərhədlərin delimitasiyasına nail olunub".

Deputat xatırladıb ki, Prezident sülh müqaviləsinin mətni, ən azı əsas prinsipləri üzərində işin bir neçə aya yekunlaşa biləcəyini deyib. Dövlət başçısı işğal dövründə vasitəçilərin planının Madrid prinsipləri adlandırılan əsas prinsiplərlə bağlı razılığa gəlməkdən ibarət olduğunu xatırladıb.

K.Bayramov deyib ki, Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması dövlət başçısının da qeyd etdiyi kimi, yalnız Ermənistan konstitusiyasına dəyişiklik ediləcəyi halda mümkündür. Yəni Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına son qoyulmalıdır.

Azərbaycanın son illər qazandığı nailiyyətlərin miqyasının dünyada analoqu olmadığını qeyd edən K.Bayramov bildirib ki, indiyə qədər postsovet məkanında torpağını itirmiş heç bir dövlət onu geri qaytarmağa müvəffəq olmayıb. Bu, o deməkdir ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə dünya tarixində görünməmiş səhifələr açılır. Dövlət başçısı Azərbaycanı nəinki güclü dövlətə çevirib, ərazi bütövlüyünü, suverenliyini tam bərpa edərək torpaqlarımızı kənd-kənd, şəhər-şəhər azadlığına qovuşdurub.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

## Sülh sazişini imzalamaq üçün yaxşı imkan var

**Cənubi Qafqazın lider dövləti olan Azərbaycan regionda sülhün, sabitliyin tərəfdarı olduğunu bu istiqamətdə atdığı qətiyyətli addımlarla, həyata keçirdiyi məqsədyönlü işlərlə göstərir.**

Otuz ildən çox müddətdə xeyli hadisələrin şahidi olduq. Bu illər ərzində ölkəmizin ərazilərində ikinci Ermənistan dövləti yaratmaq istəyən erməni quldurlarının işğalçılıq niyyətinin ağrı-acılarını biz azərbaycanlılar çəkdik. Əzəli torpaqlarından - Qərbi Azərbaycandan qovulan bizim soydaşlarımız oldu. Doğma yurdunu, isti ocağını tərk etmək istəməyənlər işgəncələrə məruz qaldılar, qətlə yetirildilər. Həmin vaxtlar - 1980-ci illərin sonları, 1990-cı illərin əvvəllərində Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur ərazilərində də silahlardan atəş açılır, qan tökülürdü. Burada da hücum edənlər təcavüzkar ermənilər, hücuma məruz qalanlar, ahı, naləsi, fəryadı ərşə bülənd olan isə azərbaycanlılar idi.

Ölkəmizin ərazilərinin iyirmi faizi Ermənistan tərəfindən işğal olundu. Qarabağda, Şərqi Zəngəzurda təcavüzkar ermənilər azərbaycanlılara qarşı dəhşətli cinayətlər, qırğınlar, soyqırımları törətdilər. Şəhid olan, şikəst edilən, itkin düşən, əsir götürülən soydaşlarımızın dərdlərini otuz ilə yaxın Ermənistanın işğal altında saxladığı ərazilərimizin həsrəti, nisgili ilə birgə çəkdik. Bütün dünya Ermənistanın cinayətkarlığını da, işğalçılığını da, beynəlxalq qanunları saymadığını da gördü və təəssüf ki, susdu.

Azərbaycanlılarsız qalan Qarabağ və Şərqi Zəngəzur ərazilərində Ermənistan yalnız hərbi istehkamlar qurdu. Erməni vandalları xalqımızın yalnız bu gününə deyil, tarixinə zərbə vurdu. Qədim milli-mədəni, dini abidələrimizi dağıtdılar, müasir tikililərimizi yerlə yeksan etdilər. Azərbaycan o illərdə münaqişənin müharibə yolu ilə həll edilməsinin tərəfdarı olmadığını öz əməlləri, qərarları ilə nümayiş etdirdi. Kanadanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kevin Hamiltonun etimadnaməsini qəbul edən zaman Prezident İlham Əliyevin bildirdiyi kimi, həmin dövrdə münaqişənin həlli ilə bağlı ölkəmiz tərəfindən çox böyük səylər göstərildi, lakin bu səylər uğursuz oldu. Belə ki, BMT Təhlükəsizlik Şurasının üç daimi üzvü münaqişənin həllinə nail ola bilmədi, daha doğrusu, olmaq istəmədi. Onların hamısı Ermənistanın həyata keçirdiyi işğalın müxtəlif səbəblər üzündən həmişəlik olmasını istəyirdi. Dövlətimizin başçısı bu qənaətə prezidentlik fəaliyyətində öz şəxsi təcrübəsi əsasında gəldiyini dedi. 2003-cü ilin sonundan başlayaraq keçmiş Minsk qrupu üçlüyü və Ermənistan tərəfi ilə dəfələrlə görüşdüyünü və bütün bunların heç bir nəticə vermədiyini xatırladı. Prezident İlham Əliyev qeyd etdi ki, keçmiş Minsk qrupunun üzvləri və Ermənistan tərəfi bunu istəmirdi. Ermənistan tərəfi torpaqlarımızı həmişəlik işğal altında saxlamağa çalışırdı.

Azərbaycan öz gücü ilə ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi. Ölkəmiz hərb meydanında qələbəsini diplomatik sahədə də davam etdirdi. Azərbaycanla Ermənistan arasında ikitərəfli danışıqlara başlanıldı, münasibətlərin normallaşması istiqamətində müəyyən addımlar atıldı. Sərhədlərin delimitasiya və demarkasiyasının həyata keçirilməsinə start verildi. Azərbaycanla Ermənistan arasında gedən proses nəticəsində Qazax rayonunun otuz il işğal altında olan Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndləri rəsmən Azərbaycana geri qaytarıldı, həmin kəndlərin əraziləri Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti tərəfindən nəzarətə götürüldü. Məqsədyönlü işlərin həyata keçirilməsi ümumilikdə sülh prosesinin irəlilədilməsinə mühüm şərait yaratdı.

Hazırda bizim ikitərəfli səviyyədə daha yaxşı nəticələr gördüyümüzü qeyd edən dövlətimizin başçısı dedi:"Kiminsə tərəfindən bu prosesə müdaxilə yoxdur. Sərhədlərin delimitasiyası, hətta nadir hal olan demarkasiya məsələlərində razılıqlara gələ bilirik". Qeyd edilib ki, düzdür, hələ sülh müqaviləsi imzalanmayıb, lakin artıq sərhədlərin delimitasiyasına nail olunub.

Dövlətimizin başçısı hesab edir ki, danışıqlar prosesi çərçivəsində kifayət qədər sürətli irəliləyirik: "Zənnimcə, sülh müqaviləsinin mətni, ən azı, əsas prinsipləri üzərində işi bir neçə aya yekunlaşdıra bilərik. Bildirim ki, işğal dövründə vasitəçilərin planı Madrid prinsipləri adlandırılan əsas prinsiplərlə bağlı razılığa gəlməkdən ibarət idi. Onlar paraflanmalı və daha sonra isə mətn tərtib edilməli idi. Hesab edirik ki, bu, bir variant ola bilər - əsas prinsiplərlə bağlı razılıq əldə edilsin, onlar paraflansın və daha sonra mətn üzərində iş getsin".

Prezident İlham Əliyev vurğuladı ki, sülh sazişinin başlıca şərti Ermənistanın konstitusiyasının dəyişdirilməsidir: "Çünki onun tərkibində Azərbaycana qarşı ərazi iddiaları var və bu, baş verməyənə qədər sülh sazişi imzalanmayacaq".

Azərbaycan əraziləri otuz ilə yaxın işğalda qaldığı, beynəlxalq səviyyədə haqsızlıqlarla, ədalətsizliklə üzləşdiyi illərdə də, indi - qalib ölkə olduğu zaman da yalnız sülh tərəfdarı olub.

Təəssüf ki, bu gün də haqlıya haqlı, cinayətkara cinayətkar, işğalçıya işğalçı demək istəməyənlər az deyil. Bəzi ölkələr, beynəlxalq təşkilatlar ikili standartlar nümayiş etdirməkdən əl çəkmirlər. Belələri guya Errmənistana arxa durur, yardım edirlər, ancaq öz maraqları naminə Ermənistanı fəlakətə sürüklədiklərinin fərqində deyillər.

Azərbaycan isə öz mövqeyindədir və ədalətli, davamlı sülhə nail olunması üçün böyük səy göstərir. Bunu artıq bir çox ölkənin, beynəlxalq təşkilatların səlahiyyətli nümayəndələri də diqqətə çatdırırlar. ABŞ Dövlət katibi Entoni Blinken də Brukinqs İnstitutunda çıxışı zamanı qeyd etdi ki, Azərbaycan və Ermənistan arasında sülh sazişinə nail olmaq üçün müstəsna imkan yaranıb. Bildirdi ki, bu saziş onilliklərlə davam edən münaqişəyə son qoyacaq və iqtisadi əlaqələr, iqtisadi inkişaf, Şərqlə Qərb, Şimalla Cənub arasında əlaqələr baxımından böyük imkan yaradacaq. ABŞ Dövlət katibi Azərbaycanın bu işdə çox böyük rola malik olduğunu vurğuladı: "Biz diplomatiya yolu ilə fəal şəkildə iş apararaq Azərbaycan və Ermənistanı sülh sazişinə yaxınlaşdırmağa çalışdıq. Biz bu sahədə Avropa İttifaqı ilə sıx əməkdaşlıq və koordinasiya həyata keçirmişik. Düşünürəm ki, bu, həqiqətən mümkündür. Mən təxminən bir həftə əvvəl bu barədə Azərbaycan Prezidenti İlham Əliyevlə danışdım. Düşünürəm ki, bu mümkündür və tam mənada Azərbaycanla Ermənistanın, həmçinin bütün regionun maraqlarına xidmət edir".

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

## *İlya DARÇİAŞVİLİ:* "Gürcüstan Cənubi Qafqazda sülh şəraitində birgəyaşayışı qətiyyətlə dəstəkləyir"



**"Gürcüstan dövləti Ermənistan ilə Azərbaycan arasında dövlət sərhədinin delimitasiyası prosesinə başlanmasını, sülh yolunda əldə edilmiş bu tarixi qərarı alqışlayır".**

AZƏRTAC xəbər verir ki, bu sözləri Gürcüstanın xarici işlər naziri İlya Darçiaşvili ermənistanlı həmkarlı Ararat Mirzoyanla görüşdən sonra mətbuata açıqlamasında deyib.

O bildirib ki, rəsmi Tbilisi regionda sülh və sabitlik naminə Azərbaycan ilə Ermənistan arasında konstruktiv dialoqa töhfə verməyə hazırdır.

Gürcü nazir əlavə edib: "Gürcüstan Cənubi Qafqazda sabitliyi və sülh şəraitində birgə yaşayışı qətiyyətlə dəstəkləyir. Biz Ermənistan və Azərbaycan arasında dövlət sərhədinin delimitasiyası prosesinə başlamaqla bağlı sülh yolu ilə əldə edilmiş tarixi qərarı alqışlayırıq. Ümid edirik ki, Ermənistan və Azərbaycan arasında sülh sazişi prosesi müsbət dinamikanı saxlayacaq".

## *A.MİRZOYAN:* "Ermənistan Azərbaycan ilə nəqliyyat kommunikasiyalarının tam açılmasında maraqlıdır"



**"Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin imzalanması regionda dayanıqlı sabitliyin bərqərar olması və sülhün qorunması baxımından mühüm tarixi hadisə olacaq, regiona daha çox sabitlik gətirəcək".**

AZƏRTAC xəbər verir ki, bu sözləri Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Tbilisidə gürcü həmkarı İlya Darçiaşvili ilə görüşdən sonra mətbuata açıqlamasında söyləyib.

Erməni nazir deyib: "Əgər biz bir ay ərzində intensiv işləsək, bu prosesi başa çatdıra və Azərbaycan ilə sülh sazişini imzalaya bilərik".

Onun sözlərinə görə, Ermənistan Azərbaycan ilə nəqliyyat kommunikasiyalarının tam açılmasında maraqlıdır.

"Bu, təkcə Ermənistan üçün deyil, regionun digər ölkələri üçün də iqtisadi cəhətdən sərfəlidir", - deyə Mirzoyan vurğulayıb.

## Qərbi Azərbaycan İcması həqiqətlərin təbliği istiqamətində ardıcıl iş aparır



**Soydaşlarımızın Qərbi Azərbaycandan, öz dədə-baba yurdlarından XVIII əsrdən başlanan məcburi köçürülmələri - deportasiya olunmaları üçüncü mərhələdə - 1988-1992-ci illərdə başa çatdı.**

Etnik təmizləmə zəminində aparılan deportasiyalar xüsusi amansızlıqla, qəddarcasına, genosidlə, kütləvi qırğınlarla həyata keçirildi. Azərbaycanlıların deportasiyası zamanı Ermənistan hakimiyyət orqanlarının özbaşınalığı, soydaşlarımıza qarşı düşmənçilik fəaliyyəti, kütləvi zorakılıqlar, Azərbaycan SSR-də bu qədər insanın yerləşdirilməsi üçün ərazinin düzgün seçilməməsi günahsız insanların ölümə məhkum edilməsi ilə nəticələndi.

1923-cü ildə Azərbaycanın tarixi-coğrafi bölgəsi olan Qarabağın dağlıq hissəsi, süni şəkildə regionun düzənlik hissəsindən ayrılaraq muxtariyyətləşdirildi - Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) yaradılsa da, Ermənistan SSR-də yaşayan azərbaycanlılara müvafiq status verilmədi. Azərbaycanlılar siyasi strukturlaşdırmadan kənarda qaldı. Bununla da Ermənistan muxtariyyətləşdirilmədən kənarda qalan azərbaycanlıları sıxışdırmaq üçün əlverişli imkan əldə etdi. Eyni zamanda Azərbaycanın DQMV-nin timsalında muxtar status almış erməniləri separatizmə təhdid etməyə başladı.

SSRİ dövründə Dağlıq Qarabağın Ermənistana verilməsi haqqında SSRİ rəhbərliyi qarşısında müxtəlif illərdə məsələ qaldırılsa da, ermənilər istədiklərinə nail ola bilmədilər. Onların Qarabağ iddiası uğursuzluğa düçar oldu. Belə bir məqamda antiazərbaycançı siyasət daha da qızışdırıldı. 1987-ci ildə SSRİ rəhbərliyinin yaxından köməyi ilə "Dağlıq Qarabağ məsələsi" yenidən gündəliyə gətirildi. 1988-ci ilin əvvəllərində Ermənistanın Azərbaycana qarşı ərazi iddialarını reallaşdırmaq məqsədi ilə Ermənistan SSR-də yaşayan azərbaycanlıların deportasiyasına növbəti dəfə əl atıldı. Deportasiya elə bir amansız miqyas aldı ki, 1988-1989-cu illərdə Ermənistan SSR-də yaşayan 250 min nəfərdən çox azərbaycanlı tarixi torpaqlarını tərk etdi və soyqırımına məruz qaldı. Ermənilərin təzyiqinə üç ilədək davam gətirən sonuncu azərbaycanlı yaşayış məskəni - Nüvədi kəndi 1991-ci ilin avqustunda boşaldıldı.

Öz mənfur niyyətlərini Qərbi Azərbaycanda reallaşdıran ermənilər havadarlarının köməyi ilə Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və daha 7 rayonu, bütövlükdə isə respublikamızın ərazisinin 20 faizindən çoxunu işğal etdi. Bununla kifayətlənməyən ermənilər Ermənistanda soydaşlarımıza məxsus tarixi yer adlarını kütləvi surətdə dəyişdirib, azərbaycanlılara məxsus mədəni abidələri, məscidləri, qəbiristanlıqları kütləvi surətdə məhv etdilər.

1988-ci ilin avqust ayınadək indiki Ermənistan ərazisində 521 türk mənşəli yaşayış məskəninin adı dəyişdirilmişdir. 1976-cı və 1988-ci illərdə nəşr olunmuş "Ermənistan SSR-in inzibati-ərazi bölgüsü" kitabı, habelə Ermənistan SSR Ali Sovetinin 9 aprel 1991-ci il tarixli fərmanı və 2000-ci ildə İrəvanda çap edilən Ermənistan Respublikasının xəritəsi qeydlərimizi təsdiq edir.

Hələ SSRİ dövründə ad dəyişməklə yanaşı, Ali Sovetin fərmanı ilə yaşayış kəndlərini birləşdirmək adı altında yüzlərlə Azərbaycan kəndinin adı Ermənistanın yaşayış məntəqələrinin siyahısından silinmişdir. Məsələn, Ermənistan SSR Ali Sovetinin 5 fevral 1978-ci il fərmanı ilə Aşağı Kilsə (Qufaark), Ağtala (Kamo), Rəhimabad (Masis), Qamışlı (Vardenis) kəndlərinin adları siyahıdan çıxarılmışdır. 1918-1987-ci illərdə indiki Ermənistan ərazisində 254 azərbaycanlı yaşayış məntəqəsi müxtəlif yollarla (əhalisi soyqırıma məruz qoyulmaqla, deportasiya edilməklə və s.) siyahıdan silinmişdir. Azərbaycana deportasiya zamanı olmazın zülmünü və sitəmini görmüş soydaşlarımızın həyatının təhlükəsizliyi üçün bütün tədbirləri gördü. Qərbi Azərbaycandan məcbur köçürülmüş soydaşlarımız ölkəmizin həyatının bütün sahələrinə inteqrasiya olundu, onun sosial-iqtisadi, siyasi və mədəni yüksəlişində fəal iştirak etdi. Minillər boyunca Qərbi Azərbaycanda yaradılmış tarixi ənənələr, zəngin mədəni irs, folklor nümunələri Ermənistanın bütün cəhdlərinə baxmayaraq, yer üzündən silinmədi, yeni tarixi şəraitdə varlığını qoruyub saxlayaraq davam etdirildi. Eyni zamanda öz dədə-baba yurdlarından zorla köçürülən soydaşlarımız tarixi torpaqlarına qayıtmaq ümidlərini itirmədilər. "Azərbaycan Qaçqınlar Cəmiyyəti" İctimai Birliyini yaradaraq haqq səslərini dünya ictimayyətinə, beynəlxalq təşkilatlara çatdırmaq uğrunda mübarizəyə başladılar.

Vətən müharibəsində qazandığımız zəfərdən sonra öz doğma torpaqlarına qayıdacaqlarının daha real olduğuna inanan ziyalılar, ağsaqqallar, sənət adamları, 2022-ci il avqustun 3-də keçirilən ümumi yığıncaqda birliyin Qərbi Azərbaycan İcması adı ilə fəaliyyət göstərməsi haqqında qərar qəbul etdilər. Qərbi Azərbaycan İcmasının məqsədi müxtəlif vaxtlarda etnik mənsubiyyətinə görə Ermənistan ərazisindən kütləvi şəkildə deportasiya olunmuş azərbaycanlıların və onların varislərinin ictimai-mədəni birliyinə nail olmaqla hüquqlarının beynəlxalq müstəvidə bərpası, Ermənistan ərazisində Azərbaycan xalqının yaratdığı zəngin tarixi-mədəni irsin öyrənilməsi, təbliğ edilməsi və tam məhv olunmasının qarşısının alınması, həmin insanların öz ata-baba yurdlarına qayıtmaq hüququnun təmin edilməsi və birgəyaşayışa nail olunmasından ibarətdir. Qərbi Azərbaycan İcması qaçqınların problemləri ilə məşğul olan yeganə ictimai qurumdur. Orada 1988-1991-ci illərdə qaçqın düşən azərbaycanlılar barədə faktlar və sənədlər saxlanılır. Həmin illərdə Qərbi Azərbaycandan qovulmuş 50 mindən çox ailənin 20 minə qədərinə dəymiş ziyan hesablanıb və hazırda bu işlər davam etdirilir. Qərbi Azərbaycanda 300-ə yaxın yaşayış məntəqəsindən qovulan qaçqınların hər bir ailə üzrə (ad, soyad, ata adı) dəqiq statistikası aparılıb, 130 kəndin siyahısı tamamlanıb. Təşkilat Qərbi Azərbaycanda tarixi və mədəni irsimizin bütün nümunələrinin dəqiq siyahısının hazırlanmasını davam etdirir.

Qərbi Azərbaycandan olan soydaşlarımızın tarixi yurdlarına qayıtması Vətən müharibəsində əldə olunan Zəfərdən sonra qarşıya qoyulan əsas vəzifələrdən biridir. Bu problemin konsepsiyasını tərtib edən icmanın qısa zamanda müəyyən uğurlara imza atması qürurvericidir. Qərbi Azərbaycan İcmasının beynəlxalq ictimaiyyətə müraciəti Birləşmiş Millətlər Təşkilatının (BMT) rəsmi sənədi kimi yayılması icmanın uğurlu fəaliyyəti ilə yanaşı, 190-dan çox ölkənin məsələ barədə xəbərdar olması deməkdir.

Bu gün icma beynəlxalq strukturlar, o cümlədən BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı, İnsan Hüquqları Komissarlığı kimi bir çox beynəlxalq təşkilatlarla qarşılıqlı fəaliyyət əsasında siyasi və mülki hüquqlar konvensiyası, qaçqınlarla bağlı olan beynəlxalq paktlar və konvensiyalar kimi xeyli beynəlxalq sənədlər əsasında Qərbi Azərbaycandan məcburi köçürülmüş soydaşlarımızın ləyaqətli şəkildə öz doğma yurdlarına qayıtma hüquqlarını Ermənistan hökumətindən tələb edir. Bu məqsədlə icmanın vəzifələri və hüquqları müəyyən edilib. 6 oktyabr 2023-cü ildə Qərbi Azərbaycan İcması nümayəndəsi Kamal Cəfərov Cenevrədə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (UNHCR) İcraiyyə Komitəsinin, BMT-nin İnsan hüquqları üzrə Ali Komissarlığının və "Cenevrə Geostrateji Observatoriyası" təşkilatının məsul şəxsləri ilə görüşlər keçirərək azərbaycanlıların Ermənistana qayıdışı və reinteqrasiyası məsələlərini müzakirə edib. 23 oktyabr 2023-cü ildə Avropa Şurasının İnsan hüquqları üzrə komissarı Dunya Miyatoviç Qərbi Azərbaycan İcması rəhbərliyi və icmaya daxil olan azərbaycanlılarla görüş keçirib. Görüşdə azərbaycanlıların Ermənistana qayıdışı məsələsi müzakirə edilib. Miyatoviç qayıdış məsələsinin siyasi iradə tələb etdiyini bildirmiş, bu məsələlərlə bağlı özünün səlahiyyətlərinə uyğun olaraq işləyəcəyini qeyd etmişdir.

Bu günlərdə Qərbi Azərbaycan İcmasının hesabat yığıncağında çıxış edən Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli qeyd edib ki, hesabat dövründə yerli icmalar ata-baba yurdlarımıza geri qayıdış uğrunda Qərbi Azərbaycan İcmasının ətrafında sıx birləşməyə və birgə çalışmağa davam ediblər. Bu ilin 6 ayı ərzində yerli icmalar tərəfindən təşkilatlanma, strukturların formalaşdırılması, əhali qrupları ilə əlaqələrin yaradılması, onların arasında kommunikasiyanın gücləndirilməsi, Qərbi Azərbaycan həqiqətlərinin təbliği istiqamətində birlikdə, ardıcıl və məqsədyönlü şəkildə tədbirlər həyata keçirilib. O qeyd edib ki, təşkilatlanma ilə yanaşı, ən vacib məsələlərdən biri də 1987-1991-ci illərdə Ermənistan SSR-dən qovulmuş, geri qayıdış hüquqlarından məhrum edilmiş azərbaycanlı əhalinin siyahısının tərtib olunması, onların şəhərlər, rayonlar, qəsəbələr, kəndlər, ailələr üzrə təsnifatlaşdırılması işləri, demək olar ki, tam başa çatdırılıb.

***Elşən QƏNİYEV, "Azərbaycan"***




# AZERBAIJAN COP29

## Yaşıl dünya naminə həmrəylik ili 2024



## "CESI" şirkətinin icraçı direktoru ilə "yaşıl enerji dəhlizi" üzrə əməkdaşlıq müzakirə olunub



**Energetika naziri Pərviz Şahbazov İtaliyaya səfəri çərçivəsində "CESI" şirkətində olub. Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, şirkətin icraçı direktoru Nicola Melchiottinin rəhbərliyi ilə geniş tərkibli görüş keçirilib.**

Enerji, texnologiya və innovasiya üzrə dünyada aparıcı məsləhətçi şirkətlərdən olan "CESI"nin 70-dən çox ölkədə xidmətləri, enerji sahəsində ötürücü infrastrukturun planlaşdırılması və mühəndisliyi, şəbəkənin modernləşdirilməsi və bərpaolunan enerji istiqamətində fəaliyyətinə dair təqdimatlar edilib.

Görüşdə "Azərbaycan, Gürcüstan, Rumıniya, Macarıstan arasında Yaşıl Enerji Dəhlizi"nin texniki-iqtisadi əsaslandırması prosesinin gedişatına və bərpaolunan enerji güclərinin şəbəkəyə qoşulması üzrə əməkdaşlığa dair müzakirələr aparılıb. "Yaşıl enerji" bağlantılarının enerji təhlükəsizliyi və enerji keçidini geniş coğrafiyada təmin edən əhəmiyyətindən bəhs olunub. "Yaşıl enerji dəhliz"ləri təşəbbüsünün COP29-un Fəaliyyət Gündəliyinin prioritetlərindən biri kimi nəzərdən keçirildiyi qeyd olunub və COP çərçivəsində birgə tədbirin keçirilməsi razılaşdırılıb.

Nazir, həmçinin "CESI" şirkətinin laboratoriyasına baş çəkib, burada elektrik komponentlərinin və sistemlərinin etibarlılığını, təhlükəsizliyini təmin etməyə yönəlmiş müxtəlif sınaq növlərinə baxış keçirib.

## *BMT-nin Baş katibi:* "Əminəm ki, Qazaxıstan Azərbaycanda keçiriləcək Tərəflər Konfransında üzərinə düşən rolunun öhdəsindən layiqincə gələcək"

**"İqlim böhranı və su qıtlığı Mərkəzi Asiyada ciddi problemlər yarada biləcək iki əsas məsələdir".**



AZƏRTAC xəbər verir ki, bu sözləri Kazinform agentliyinə müsahibəsində BMT-nin Baş katibi Antonio Quterreş deyib.

Onun sözlərinə görə, Qazaxıstan su qıtlığı probleminin həlli ilə fəal məşğul olsa da, hər bir dövlət qlobal problemin həllinə töhfəsini verməlidir. Quterreş iqlim böhranına da toxunaraq deyib:

"Bütün ölkələr gələn ilə qədər yeni milli fəaliyyət planları təqdim etməlidirlər ki, bu da uzunmüddətli qlobal istiləşməni 1,5 dərəcə Selsi səviyyəsində saxlamaq hədəfinə tam uyğun olsun. Bu planlar ən azı 2030-cu ilə qədər fosil yanacaq istehsalının və istehlakının 30 faizə qədər azaldılmasını əhatə etməlidir", - deyə BMT-nin Baş katibi vurğulayıb.

Quterreş əmin olduğunu bildirib ki, Qazaxıstan enerji keçidində və bu il Azərbaycanda keçiriləcək Tərəflər Konfransında (BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 nəzərdə tutulur) üzərinə düşən rolunun öhdəsindən layiqincə gələcək.

# Azərbaycan "yaşıl enerji" hədəflərinə daha tez çatacaq

**Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyası və müasir milli enerji siyasətinin "yaşıl artım"ı hədəfləyən prioritetləri COP məqsədləri ilə üst-üstə düşür. COP29-a sədrliyi uzun illərdir qazıntı yanacağı üzrə etibarlı tərəfdaş olan ölkəmizin dünyada təhlükəsiz və ədalətli enerji keçidindəki rolunu daha da gücləndirir.**



Bu, İtaliyanın Milan şəhərində "Yaşıl Enerji" Keçidi Konqresi çərçivəsində keçirilən nazirlər panelində bir daha vurğulanıb. Bildirilib ki, 1300 meqavatlıq günəş-külək elektrik stansiyalarının təməlinin qoyulması və 100 meqavat külək enerjisi layihəsinin hərracı ilə bağlı bu ilə olan planlarımız uğurla reallaşır.

Qeyd edək ki, energetika naziri Pərviz Şahbazov sözügedən tədbirdə əsas məruzəçi olaraq COP29 öncəsi Azərbaycanın milli enerji strategiyasına dair çıxış edib. Diqqətə çatdırıb ki, bu gedişatla 2030-cu ilə 30 faizlik hədəfimizə daha tez nail olacağıq. 2027-ci ilədək 2 milyard dollardan çox investisiya dəyərində 2 qiqavatadək günəş-külək elektrik stansiyalarının inşası bərpaolunan enerjinin quraşdırılmış gücdə payını 33 faizə yüksəldəcək.

Bəli, hədəflərimizə doğru inamla irəliləyirik. Prezident İlham Əliyev tərəfindən "yaşıl enerji zonası" elan edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvanın sıfır emissiyaya malik ərazilər kimi inkişafı, ilkin mərhələdə 5 qiqavatdan çox "yaşıl elektrik" və "yaşıl qaz"ların ixracı məqsədilə "Xəzər-Qara dəniz-Avropa", "Azərbaycan-Türkiyə-Avropa", həmçinin Qazaxıstan və Özbəkistandan enerjinin ötürülməsi üçün "Azərbaycan-Mərkəzi Asiya-Avropa" "yaşıl enerji" dəhlizlərinin yaradılması dekarbonizasiya və iqlim məsələlərində də ölkəmizi regionda önə çıxarır.

"Yaşıl gündəliy"imizdəki çoxsaylı tədbirlərdən bəzilərini xatırlatmaq kifayətdir. Keçən il oktyabrın 26-da 230 MVt gücündə "Qaradağ" Günəş-Elektrik Stansiyası işə salındı. Obyektin təməlqoyma mərasimi isə 2022-ci il martın 15-də Prezident İlham Əliyevin iştirakı ilə keçirilmişdi. Prezident stansiyanın açılışında da iştirak etdi.

"Qaradağ" Xəzər regionunda və MDB məkanında ən böyük günəş-elektrik stansiyasıdır. Stansiya 262 milyon dollar dəyərində xarici sərmayə hesabına tikilib. Ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənaye-miqyaslı ilk günəş-elektrik stansiyasıdır.

Stansiyada hər il 500 milyon kilovat-saat elektrik enerjisi istehsal edilməklə 110 milyon kubmetr həcmində təbii qaza qənaət ediləcək. Eyni zamanda atmosferə atılan karbon emissiyası 200 min ton azaldılacaq. 550 hektar ərazini əhatə edən elektrik stansiyada 570 min günəş paneli quraşdırılıb. Bu stansiyanın şəbəkəyə qoşulması üçün 330 kilovoltluq yarımstansiya tikilib. Stansiya 110 mindən çox evi elektrik enerjisi ilə təmin edəcək.

"Qaradağ"ı Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) "Masdar" şirkəti tikib və bu şirkətlə ölkəmizin əməkdaşlığı uğurla davam edərək getdikcə daha da genişlənir. Məsələn, bu il iyunun əvvəlində keçirilən Bakı Enerji Həftəsi çərçivəsində Prezident İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir Neftçala, Biləsuvar Günəş-Elektrik stansiyalarının və Abşeron-Qaradağ Külək-Elektrik Stansiyasının təməlini qoydular.

2022-ci il yanvarın 13-də Bakıda, "Gülüstan" sarayında Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 240 MVt gücündə "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının təməlqoyma mərasimi keçirilib. Bu stansiyanın gücü külək hesabına əldə olunan 240 meqavat olacaq ki, bunun da sayəsində 300 min evin elektrik enerjisi təmin ediləcək. Eyni zamanda 220 milyon kubmetr qaza qənaət olunacaq və il ərzində 400 min ton karbon qazının atmosferə atılması azaldılacaq.

Bu ilin aprelində isə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə "ACWA Power" şirkəti arasında yeni bir saziş - "yaşıl gübrə"lərlə bağlı əməkdaşlıq sazişi imzalanıb. Bu sənəd "Aşağı karbonlu yaşıl gübrə" layihəsi çərçivəsində "yaşıl gübrə"lərin (əsasən karbamid olaraq) potensial istehsalı və sonrakı satışı üzrə əməkdaşlığı nəzərdə tutur. Sazişə əsasən, "ACWA Power" şirkəti "Aşağı karbonlu yaşıl gübrə" layihəsinin bərpaolunan enerji və "yaşıl hidrogen"in istehsalına aid olan hissələrində aparıcı rol oynayacaq.

Qarabağ və Şərqi Zəngəzur da getdikcə daha çox "yaşıl işıq"dan bəhrələnəcək. Hazırda Cəbrayıl rayonunda BP şirkəti "Şəfəq" layihəsi çərçivəsində fotovoltaik (PV) günəş-elektrik stansiyasının yaradılması üzrə işlər aparır. Layihə üzrə tikinti işlərinin bu ilin ikinci yarısında başlanacağı və təxminən 18 ayadək davam edəcəyi gözlənilir. "Şəfəq" stansiyası təxminən 802 hektarlıq ərazini əhatə edəcək və 240 meqavat dəyişən cərəyan gücünə malik olacaq.

Bakı Enerji Həftəsinin açılışındakı çıxışında Prezident İlham Əliyev demişdir: "Qarabağ və Şərqi Zəngəzurun azad olunmuş ərazilərinin nəhəng hidroelektrik potensialı var. 2020-ci ilin noyabrında həmin ərazilər azad ediləndən sonra orada 270 meqavat həcmində hidroelektrik stansiyalar istifadəyə verilib. 3-5 il ərzində bu rəqəm 500 meqavata çatacaqdır. Beləliklə, bərpaolunan enerjinin 1 qiqavat həcmi bizə yarım milyard kubmetr qaza qənaət etməyə imkan verəcək ki, bazarın bu qaza ehtiyacı var və bu ehtiyac davam edəcəkdir".

Bu ərazilərdə artıq neçə-neçə enerji obyektləri ya əsaslı təmir olunub, ya da yenidən tikilib. Təkcə 2023-cü ildə Qarabağ və Şərqi Zəngəzurda "Azərenerji" ASC tərəfindən 12 yerdə tikilən yarımstansiya və su-elektrik stansiyalarının açılışı olub.

Naxçıvan Muxtar Respublikasında da həm günəş, həm külək, eyni zamanda su-elektrik stansiyalarının inşası üçün böyük potensial var. Gələcəkdə buradan Türkiyəyə ən azı 1000 meqavat həcmində "yaşıl enerji" ixracı da mümkün olacaq.

Bunlar görülmüş işlərin və nəzərdə tutulan tədbirlərin yalnız bir qismidir. Onların getdikcə şaxələnəcəyinə isə şübhə yoxdur. Azərbaycanın energetika naziri də Milandakı çıxışında məhz bunu vurğulamışdır: "COP29-un əsas mövzusunun maliyyə olduğunu nəzərə aldıqda, bu tədbirin bərpaolunan enerjinin üçqat, enerji səmərəliliyinin ikiqat artırılması və ədalətli enerji keçidinə nail olunmasını sürətləndirəcək platforma olacağına inanırıq. Bu aspektdə, elektrik şəbəkələrinin gücləndirilməsini, enerji saxlanma imkanlarının genişləndirilməsini, hidrogen istehsalının artırılmasını, müvafiq istiqamətlər, o cümlədən HVDC infrastrukturu, enerji səmərəliliyi üzrə investisiyaların bir neçə dəfə artırılmasını təmin edəcək yeni təşəbbüs və hədəflərə ehtiyac var".

***Flora SADIQLI, "Azərbaycan"***

## *Muxtar BABAYEV:* "Biz maliyyə planları, büdcələri və hədəfləri ilə dəstəklənən etibarlı keçid yollarını qəbul etməliyik"

**Ətraf mühit, sosial və idarəetmədə (ESG), o cümlədən dayanıqlı inkişafda özəl sektorun öz ambisiyalarını yüksəltməsi və kollektiv tərəqqimiz üçün davamlılıq öhdəliklərini sürətləndirməsi lazımdır.**



AZƏRTAC xəbər verir ki, bunu Azərbaycanın ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev "Dayanıqlı inkişaf naminə dövlət-özəl tərəfdaşlığı" mövzusunda keçirilən Ətraf Mühit, Sosial və İdarəetmə Sammitində videobağlantı zamanı deyib.

"Biz birgə işləməklə dövlət və özəl qurumların ESG-nin həyata keçirilməsində anlayışlar, strategiyalar və ən yaxşı təcrübələri paylaşa biləcəyi əməkdaşlıq mühitini inkişaf etdirmək səylərini dəstəkləyə bilərik. Ortaq problemlərimiz üçün işlək həll yolları tapılması məqsədilə özəl sektora ehtiyacımız var. Biz maliyyə planları, büdcələri və hədəfləri ilə dəstəklənən etibarlı keçid yollarını qəbul etməliyik. Ümid edirik ki, şirkətlər kapitalı necə bölüşdürdükləri və investisiya qərarlarının iqlim məqsədlərimizə uyğun olmasını necə təmin etdiklərini göstərə biləcək şəkildə COP29-a hazır gələ bilərlər.

İqlimə müsbət təsir göstərən iqtisadi modellər yarada bilmək məqsədilə "yaşıl kapital bazarları"nı dərinləşdirmək üçün maliyyə xidmətləri sənayesinə ehtiyacımız var", - deyə M.Babayev qeyd edib.

## Brüsseldə "COP29: Yaşıl dünya naminə həmrəylik" adlı konfrans təşkil edilib



**İyulun 2-də Azərbaycanın Belçikadakı səfirliyi külək enerjisi və onun texnologiyaları üzrə ixtisaslaşmış aparıcı şirkətləri özündə birləşdirən "WindEurope" assosiasiyası ilə birlikdə Brüsseldə "COP29: Yaşıl dünya naminə həmrəylik" adlı konfrans təşkil edib.**

AZƏRTAC xəbər verir ki, Avropanın külək, günəş və hidrogen enerjisi şirkətlərinin təmsilçilərinin, Avropa İttifaqı rəsmilərinin və diplomatik missiyaların nümayəndələrinin iştirak etdikləri konfransın panel müzakirələrində Azərbaycanın energetika nazirinin müavini, COP29-un baş icraçı direktoru Elnur Soltanov, Avropa Komissiyasının İqlim fəaliyyəti üzrə baş idarəsinin (DG CLIMA) baş direktoru Kurt Vandenberqhe, Enerji üzrə baş idarəsinin (DG ENER) baş direktoru müavini Metyu Baldvin, Qonşuluq və genişlənmə danışıqları üzrə baş idarəsinin (DG NEAR) direktoru Adrienn Kiraly, "WindEurope"un baş icraçı direktoru Giles Dickson və "Hydrogen Europe"un baş direktoru Jorgo Chatzimarkakis çıxış ediblər.

Moderator Laura Şieldsin və auditoriyanın suallarını cavablandıran məruzəçilər COP29-un fəaliyyət gündəliyi və danışıqlar strategiyası, iqlim diplomatiyası, enerji keçid prosesinin maliyyələşdirilməsi, inkişaf etməkdə olan ölkələrə dəstək, bərpaolunan enerjinin, habelə enerji səmərəliliyin artırılması üzrə hədəflər, inkişaf etməkdə olan ölkələrdə bərpaolunan enerji sənayesinin üzləşdiyi əsas problemlər və ekoloji cəhətdən təmiz texnologiyaların tətbiqi üçün potensialın yaradılması təşəbbüsləri kimi məqamlara toxunublar.

Brüsselə işgüzar səfəri çərçivəsində COP29-un baş icraçı direktoru Elnur Soltanov, həmçinin Beynəlxalq Enerji Xartiyasının baş katibi vəzifəsini icra edən Atsuko Hirose, "Blockchain" və iqlim institutunun (BCI) baş direktoru Alastair Marke ilə görüş keçirib.

# "Əl Ayn" nəşri COP29 haqqında geniş məqalə dərc edib

**Ərəb ölkələrində geniş oxucu kütləsinə malik olan "Əl Ayn" nəşrinin elektron versiyasında jurnalist Mustafa Şabanın "Dubaydan Bakıya...Azərbaycanda keçiriləcək COP29 konfransı haqqında məlumatlar" sərlövhəli geniş məqaləsi dərc edilib.**

AZƏRTAC xəbər verir ki, məqalədə COP28-dən COP29-a qədər olan müddətdə istixana qazlarının emissiyasını azaltmaq üçün beynəlxalq fəaliyyətin və qlobal səylərin iddialı proqramlarla davam etdiyi, eyni zamanda maliyyələşdirmə probleminin əsas mövzu olaraq qaldığı qeyd edilir.

Müəllif yazır ki, 2024-cü il noyabrın 11-dən 22-dək Bakıda keçiriləcək Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) iqlim dəyişikliyi ilə mübarizənin maliyyələşdirilməsi probleminin həlli baxımından həlledici olacaq. "Bakı konfransının iqlimlə bağlı problemlərin maliyyələşdirilməsi problemini həll edəcəyi gözlənilir. Belə ki, COP29 sessiyalarının fəaliyyəti maliyyə problemlərinin həllinə və COP28-də əldə edilən razılaşmaları tamamlamağa yönəldiləcək. Dubay konfransı başa çatana qədər maliyyə resursları 700 milyon dollardan çox olan Zərər fondu ilə bağlı müzakirələr də aparılacaq. Beynəlxalq iqtisadi qurumların hesabatlarında iqlim dəyişikliyindən ən çox təsirlənən ölkələrə dəstək üçün tələb olunan məbləğin 400 milyard dollardan 1 trilyon dollara qədər artırılacağı gözlənilir. Hökumətlər artıq razılaşıblar ki, yeni hədəf ildə minimum 100 milyard dollardan başlayacaq və ilk növbədə, inkişaf etməkdə olan ölkələrin ehtiyacları və prioritetləri nəzərə alınacaq".

Məqalədə bildirilir ki, maliyyələşdirmənin əlçatan və sərfəli olması və inkişaf etmiş ölkələrin bu məqsədlər üçün daha çox vəsait ayırması COP29-un diqqət mərkəzində olmalıdır.

Mustafa Şaban daha sonra yazır: "Ötən ay keçirilən Bonn iqlim konfransı COP29 üçün kompas rolunu oynadı. BMT-nin iqlim üzrə rəhbəri Saymon Stil həmin tədbirdə bildirib ki, qlobal iqlim dəyişikliyinin şiddəti artdıqca, Bakıda "iddialı nəticələr əldə etmək üçün sıldırım dağa dırmaşmaq lazım gələcək". O əlavə edib ki, maliyyələşdirmə səylərini sürətləndirməyə təcili ehtiyac var, həm də builki məsələlər gələn ilə qədər təxirə salına bilməz. Çünki iqlim böhranının hər bir ölkənin insanları və iqtisadiyyatları üçün fəsadları getdikcə pisləşir".

Müəllif qeyd edir ki, 2009-cu ildən bəri sənayeləşmiş ölkələr inkişaf etməkdə olan ölkələrə hər il milyardlarla dollar vəsait ayırmağı vəd ediblər. Bu vədlər 2015-ci il Paris İqlim Sazişi fonunda artıb, amma onun icra müddəti 2025-ci ilə qədər uzadılıb. 2022-ci ildə 100 milyard dollarlıq baryerin keçilməsi isə mühüm nəticə sayıla bilər.

Məqalədə diqqətə çatdırılıb ki, Azərbaycanın ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən olunmuş prezidenti Muxtar Babayev bütün ölkələri Bakıda keçiriləcək iqlim konfransına hazırlıqla bağlı anlayış və həmrəylik nümayiş etdirməyə çağırıb.

Müəllif daha sonra yazıb: "Hətta ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Brayen Bakıda keçirdiyi brifinqdə COP29-un iqlim dəyişikliyi ilə bağlı kritik təşəbbüsləri irəli sürmək baxımından mühüm fürsət olduğunu vurğulayaraq, ölkəsinin konfransa güclü dəstəyini ifadə edib. Eyni zamanda Azərbaycan Prezidenti İlham Əliyev ötən ay keçirilən regional konfransda COP29-un əsas mövzularını açıqlayıb. Dövlət başçısı qeyd edib ki, onların arasında iqlim dəyişikliyinin mənfi nəticələrindən ciddi şəkildə təsirlənən kiçik ada dövlətlərinin üzləşdiyi problemlərin həlli prioritet məsələlərdən biri olacaq. Bakı konfransında 2025-ci ildən sonra iqlim maliyyəsi üzrə yeni, konkret kollektiv hədəfin razılaşdırılması üzrə danışıqlar da aparılacaq".

Jurnalist məqalənin sonunda yazıb: "Azərbaycan Prezidenti hesab edir ki, ölkəsinin bu mötəbər konfransa evsahibliyi etməsi dünya ölkələri arasında körpülərin, etimad və həmrəyliyin qurulmasına töhfə verəcək. Azərbaycan Qlobal Cənubu təmsil edir və Qoşulmama Hərəkatına uğurla sədrliyi dövründə - 2019-2023-cü illərdə Avropa İttifaqı ölkələri ilə güclü əlaqələr qurub. Bakı, həmçinin Qlobal Cənub və Qlobal Şimal arasında iqlim dəyişikliyi ilə bağlı həmrəyliyi gücləndirməyə çalışacaq. Bütün bu fəaliyyətlər COP29-un uğurunun rəhni olacaq və Azərbaycan qlobal iqlim dəyişikliyi ilə mübarizəyə mühüm töhfə verəcək. Bunu əvvəlcədən əminliklə bildirmək olar".



# REGİONLAR

## Prezidentin çağırışına cavab gecikmədi

### İş adamları Qarabağ və Şərqi Zəngəzurun dirçəldilməsində fəal iştirak edirlər

**Vətən müharibəsində Azərbaycan Ordusunun göstərdiyi fövqəladə qəhrəmanlıq düşmənə ağır zərbə vurub işğalda olan torpaqları cəmi 44 gün ərzində azad etməsi bütün dünyanı heyrətləndirdi. Dost da, düşmən də gördü ki, xalqımız Vətənin bütövlüyü üçün hər cür fədakarlığa hazır və qabildir.**



Azərbaycan qələbədən sonra da dünyanı heyrətləndirməyə davam edir. Bu dəfə işğal altında olmuş ərazilərin yenidən qurulması, dirçəldilməsi sahəsində. Həmin dağıntıları görən hər kəs buraların bərpasının mümkün olduğuna inana bilmirdi. Üstəlik, düşmən hər qarış torpağımıza mina basdırmışdır ki, bu da bərpa işlərini daha da çətinləşdirirdi. Ancaq xalqımız bu çətinliyin öhdəsindən də bacarıqla gəlir. Təkcə Füzuli Beynəlxalq Hava Limanının 8 aya tikilməsi Azərbaycan dövlətinin və xalqının qüdrətini bütün dünyaya göstərdi. Göstərdi ki, Prezident İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzuru qısa müddətdə yenidən cənnətə çevirmək hədəfi arzu yox, reallıqdır. İndiyədək görülən işlər, icra edilən nəhəng layihələr göstərir ki, dövlət başçısının rəhbərliyi ilə xalqımız bu regionları nəinki ölkəmizin, hətta dünyanın həsəd apardığı bir məkanına çevirir.

Məlumdur ki, 30 il ərzində dağıdılan, daşı üstə daş qalmayan, xarabazarlığa çevrilən torpaqlarda çox iş görülməlidir. O üzdən dövlət başçısı yerli və xarici sahibkarları Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa-quruculuq işlərində iştirak etməyə çağırdı. Dövlət başçısının dəvəti sahibkarlar tərəfindən məmnuniyyətlə qəbul olundu. Hazırda bu iki iqtisadi rayonda çox sayda yerli və əcnəbi sahibkar fəaliyyət göstərir. Üstəlik, yeni müraciətlər daxil olmaqda davam edir.

Doğma torpaqların bərpasında yerli sahibkarlar daha fəaldırlar. Hazırda onlar Ağdam və Araz Vadisi İqtisadi Zonası texnoparklarında, həmçininn bir çox infrastruktur layihələrin icrasında iştirak edirlər. Yeri gəlmişkən qeyd edək ki, son dövrlər ölkədə dövlətlə özəl sektor arasında mükəmməl, qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri formalaşıb. Həmin münasibətlərdən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında geniş istifadə olunması üçün mühüm addımlar atılır. Bu günlər İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə Şuşa şəhərində 100-dən çox sahibkarın qatıldığı tədbirin keçirilməsi həmin addımlardandır. "Sahibkarlar üçün yeni imkanlar: Qarabağı birlikdə quraq" mövzusunda keçirilən tədbirdə azad olunmuş ərazilərimizin iqtisadi potensialı, biznes üçün güzəştlər və digər dəstək tədbirləri barədə sahibkarlara geniş şəkildə məlumat verilib. Ümumiyyətlə, tədbirin keçirilməsində əsas məqsəd sahibkarlıq subyektlərinə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının investisiya imkanları və biznes perspektivlərinin təqdim edilməsi, dövlət-özəl sektor əməkdaşlıq modelinin əhəmiyyəti barədə daha ətraflı məlumat vermək olmuşdur.

İqtisadiyyat naziri Mikayıl Cabbarov tədbirdə sahibkarlara müraciət edərək demişdir: "Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi inkişaf sahəsində böyük uğurlar əldə edilib. Prezident İlham Əliyev azad olunmuş ərazilərin iqtisadi reinteqrasiyasına böyük diqqət yetirir. Azad olunmuş ərazilərdə aparılan bərpa və quruculuq işləri iqtisadi və sosial inkişaf üçün yeni imkanlar açıb. Regionda biznesin inkişafı üçün yaradılan şərait, dövlət-sahibkar işbirliyi müstəvisində yeni layihələr reallığa çevrilib. İlk növbədə vətəndaş olaraq hər birimiz üçün işğaldan azad edilmiş ərazilərin bərpası və iqtisadi dirçəlişi prioritetdir. Dövlət bu sahədə üzərinə düşən öhdəlikləri yerinə yetirir, biznes üçün bölgədə əlverişli şəraiti təmin edir".

Toplantıda qeyd olunmuşdur ki, bir çox yerli sahibkar bərpa-quruculuq işləri başlananda dərhal bu prosesə qatılmaq üçün müraciət etmişdir. Onlardan bəziləri artıq bölgədə öz layihələrini reallaşdırırlar. O da vurğulanmışdır ki, bu ərazilərdə fəaliyyət göstərmək sahibkarlar üçün həm də bir tarixi fürsətdir. Burada çalışan sahibkarlara böyük güzəştlər edilir, bizneslərinin inkişafı üçün geniş perspektivlər açılır. Nazir sahibkarları bu fürsəti qaçırmamağa, Qarabağ və Şərqi Zəngəzurda biznes imkanlarından səmərəli şəkildə yararlanmağa və bölgənin iqtisadi reinteqrasiyasına töhfə verməkdə fəal olmağa dəvət etmişdir: "Hər qarışı bizə doğma olan bu torpaqların dirçəlişi üçün dövlət-özəl sektoru olaraq bərabər çalışmalıyıq. Sahibkarlarımızın həmrəylik və birlik kimi milli dəyərlərimizə sadiq qalaraq Qarabağın iqtisadi yüksəlişinə töhfə verəcəyinə ürəkdən inanırıq".

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Şəkidə bu il də taxıl boldur

### Havalar imkan versə, fermerlərin ümidləri doğrulacaq

**Şimal-qərb bölgəsində havaların əlverişsiz keçməsinə baxmayaraq, ölkəmizin iri taxılçılıq rayonlarından sayılan Şəkidə biçin davam edir.**

Cari mövsüm rayon üzrə 58 min 236,1 hektar taxıl sahəsinin biçilməsi nəzərdə tutulur. Taxıl əkinlərinin 24 min 63,7 hektarını buğda, 34 min 172,4 hektarını arpa sahələri təşkil edir.

Şorsu, Kiçik Dəhnə, Böyük Dəhnə, Şəkikənd, Suçma, Cumakənd və digər kəndlərin ərazilərindəki təsərrüfatlarda arpa biçilib. Şəki Dövlət Aqrar İnkişaf Mərkəzinin bitkiçilik sektorunun baş məsləhətçisi Sahib Abdulhəmidovun verdiyi məlumata görə, bu günədək 28 min 311 hektarı arpa, 4293 hektarı buğda olmaqla 32 min 604 hektar sahənin məhsulu biçilib, 86 min 546 ton taxıl tədarük edilib. Sahələrdən toplanan taxılın 74 min 741 tonu arpa, 11 min 805 tonu buğdadır. Arpa sahələrinin hər hektarından orta hesabla 26,4, buğda sahələrindən 27,5 sentner məhsul götürülüb.

Biçin kampaniyasına 131 taxılbiçən kombayn, 90 küləşpresləyən aqreqat, 334 şum traktoru, 150-dən çox yük maşını, 100-dək traktor yedəyi və digər texnikalar, həmçinin yanğınsöndürən və su maşınları cəlb olunub.

## Balakən kümçüləri 19 tona yaxın yaş barama təhvil veriblər

**Balakəndə barama tədarükü artıq yekunlaşıb. Rayon kümçüləri bu il qəbul məntəqəsinə 18 ton 752,1 kiloqram yaş barama təhvil veriblər.**

Bu barədə Balakən Dövlət Aqrar İnkişaf Mərkəzindən bildirilib. Qurumun məlumatına görə, cari mövsüm barama yetişdirilməsi üçün 270-dək kümçü ilə müqavilə bağlanmış, onlara 700 qutu və ya 13,3 kiloqram ipəkqurdu toxumu paylanmışdır.

Qazma kəndindən Tahir Məmliyev qəbul məntəqəsinə rayon üzrə hamıdan çox - 371,9 kiloqram yaş barama təhfil verib. Kümçü bu il 12 qutu - 228 qram ipəkqurdu toxumu götürmüşdür. Mahamalar kəndindən Elmir Pəhlivanov 288,5, Hənifə kəndindən Rədxan Layıcov 281,6, Yeni Şərif kəndindən Muhuma Xattayev isə 277,2 kiloqram yaş barama təhvil vermişlər. Məntəqədə yaş baramanın qəbulu "Azəripək" MMC-nin tədarük üzrə mütəxəssislərinin iştirakı ilə həyata keçirilmişdir.

***Qurban MƏMMƏDOV***

## Lənkəranlı ağsaqqalların hesabatı dinlənilib

**Lənkəran Rayon Ağsaqqallar Şurasının 2023-cü il ərzində gördüyü işlərin yekununa dair hesabat yığıncağı keçirilib.**

Tədbir iştirakçıları öncə Ümummilli Lider Heydər Əliyevin Lənkəran şəhərinin mərkəzi meydanında ucaldılmış Heydər Əliyevin abidəsini ziyarət ediblər.

Dövlət himninin səslənməsi ilə başlayan tədbirdə Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov çıxış edərək ağsaqqalların ölkəmizin ictimai-mədəni həyatındakı rolundan, yaşlı nəslin nümayəndələrinə göstərilən dövlət qayğısından danışıb, gənclərin dövlətə, xalqa sədaqət ruhunda, zərərli təsirlərdən uzaq və sağlam əsaslar üzərində tərbiyəsi işində ağsaqqallara hər zaman böyük ehtiyac olduğunu diqqətə çatdırıb.

Respublika Ağsaqqallar Şurasının sədr müavini Abel Məhərrəmov Lənkəranda ağsaqqalların rayon rəhbərliyi ilə sıx əməkdaşlığından məmnunluğunu ifadə edib, ağsaqqalların əhali, xüsusilə gənclər arasında aparılan maarifləndirmə işində fəal iştirakının zəruriliyini diqqətə çatdırıb.

Hesabat yığıncağında Lənkəran Rayon Ağsaqqallar Şurasının sədri Eldar Hüseynov çıxış edərək 2023-cü il ərzində görülən işlər barədə geniş məlumat verib. Hesabat qənaətbəxş hesab olunub.

***S.CAVADOV,***
***"Azərbaycan"***

## Bu isti yay günlərində suvarma ilə bağlı ciddi problem olmamalıdır

### Qusar Suvarma Sistemləri İdarəsinin məqsədi budur



**Bu gün ölkəmizdə kənd təsərrüfatının inkişafının meliorasiya tədbirləri olmadan təsəvvür etmək mümkün deyil. Aqrar sahədə yüksək nəticə əldə etmək üçün mütləq bol suvarma suyu lazımdır. Məhz buna görə də regionların inkişafına yönəldilən dövlət proqramlarında ölkədə aqrar sahənin gələcək nailiyyətləri üçün meliorasiya və su təsərrüfatı sisteminin müasirləşdirilməsi əsas istiqamət kimi götürülmüşdü.**

Həmin proqnozlar çərçivəsində bütün bölgələrdə bu istiqamətdə planauyğun şəkildə böyük işlər görülmüşdür. Yeni su anbarları istifadəyə verilmiş, köhnə su kanalları təmir edilmiş, subartezian quyuları qazılmışdır və s. Bütün bu işlər davamlı xarakter daşıdığı üçün indi də davam edir.

Bunu Qusar rayonunun timsalında da aydın görmək olar. Şimal regionunda suvarılan torpaq sahələri xeyli genişdir. Təkcə Qusarda 29398 hektar suvarılan torpaq sahəsi var. Amma ümumilikdə Qusarda becərilən sahələrin böyük hissəsi dəmyədir, yəni dağ və dağətəyi ərazilərdə yerləşir.

Sahələrin suvarılması üçün Qusar, Samur çaylarından, eləcə də Samur-Abşeron və Xanarx kanallarından istifadə olunur. Samur-Abşeron kanalı Qafqaz bölgəsində ən iri suvarma sistemlərindən biridir. Xanarx kanalı Bakıdan 200 kilometr şimalda yerləşir və sərfini Samur çayı hidroqovşağının suqəbuledicisindən götürür.

Qusar Suvarma Sistemləri İdarəsinin tabeliyində olan kanalların ümumi uzunluğu 1578, 21, o cümlədən açıq olanlar 1570,6, örtülü olanlar 192 kilometrdir. Torpaq məcralı kanallardan sahələrə fasilələrlə su verilir. Hazırda rayon üzrə həmçinin 44 subartezian quyusu istismar edilir. Bununla belə, su ehtiyatlarını artırmaq və becərilən torpaq sahələrini vaxtlı-vaxtında suvarma suyu ilə təmin etmək bu gün ölkəmizin şimal bölgəsi üçün də aktual məsələdir. Ona görə də Qusarçay üzərində yeni bir su anbarının tikilməsi nəzərdə tutulmuşdur. Eləcə də vaxtilə istimar edilən, lakin hazırda yararsız hala düşən, 42 kilometr uzunluğunda olan Yuxarı Zeyxur kanalının yenidən qurulması planlaşdırılmışdır. Böyük su ehtiyatına malik olacaq həmin anbar vasitəsilə suvarmanın çətin dövrü sayılan yay aylarında məhsulların becərilməsində heç bir problem yaşanmayacaq.

Rayonda 5 sudan istifadə birliyi fəaliyyət göstərir. Ödəmələrə gəlincə, bu iş də normal qaydada aparılır. Yəni su olmayan yerdə sahibkarlardan ödəmə tələb edilmir. Sahibkar ona aid olan torpaq sahələrini mütəmadi suvara bilirsə, onun haqqını da vaxtında ödəyir.

Rayon Suvarma Sistemləri İdarəsində 160 nəfər çalışır. Hələ yazın sonlarından rayon üzrə bütün sudaşıyıcı xətlər idarənin mütəxəssisləri tərəfindən yoxlanılmışdır. Ona görə də bu günlər təsərrüfatlarda su sarıdan ciddi problem yaşanmır.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

**Reportaj**

## Biçin yekunlaşır, növbə pambığındır

### Tarlalarda üçüncü kompleks becərmə işləri aparılır

**Sahənin kənarında dayanmış traktora qoşulan aqreqata karbamid gübrəsinin boşaldılması başa çatır. Fermer Eyvaz Məlikov üzünü mexanizator Mehdi Məmiyevə tutaraq: "Sürə bilərsən", - deyir.**

Traktor cərgələrin arası ilə irəliləməyə başlayır. "MKT - İK" MMC Salyan filialı istehsalat şöbəsinin rəisi Əliskəndər Əliyev, filialın Noxudlu kənd ərazisi üzrə sahə aqronomu Akif Əliyev traktorun arxasınca sahəyə girib cərgələrdəki kolları diqqətlə gözdən keçirirlər. Əliskəndər üzünü fermer Eyvaza tutaraq:

- Yaşa, var ol, yaxşı pambıq yetişdirirsən, - deyir. - Hər kolun üstündə kifayət qədər gül, daraq var. Nübaranlıq kimi bir neçə fındıq boyda qoza da gördüm.

O, sözünə davam edərək soruşur:

- Əkini nə vaxt aparmışdın?

Sifəti günəşin təsirindən qaralmış fermer:

- Aprel ayının 5-də, - deyə cavab verir.

Ərazi üzrə aqronom Akif də söhbətə qoşulur:

- Əliskəndər müəllim, Noxudlu kəndi ərazisində mənə təhkim olunmuş 200 hektar sahənin demək olar ki, hamısında pambığın vəziyyəti bu cürdür, yəni bitkilər arağaşdır.

Fermer Eyvaz:

- Amma özünüz bilirsiniz ki, gördüyünüz sahələr indiki vəziyyətə asan gəlib çıxmayıb. Təbiət sanki bu il bizi sınağa çəkib. Aprel ayında havalar çox yaxşı keçdi. Arata düşən sahələrdə tez bir zamanda səpin apardıq. Hər yerdə yaxşı da çıxış aldıq. Amma mayda yağan aramsız yağışlar işləri korladı. Havaların sərin keçməsi nəticəsində bitkilər müəyyən qədər inkişafdan qaldı, xəstəliyə tutuldu. Amma biz də geri çəkilmədik. Sağ olsun ərazi nümayəndəsi və "MKT - İK" Salyan filialının digər mütəxəssisləri. Hər gün yanımızda olub sahələri bir-bir nəzərdən keçirdilər. Xəstəliklərə qarşı dərmanlama apardıq. Bu işdə mexanizatorların da əməyini xüsusi qeyd etmək lazımdır. Bizimlə bərabər onlar da yuxularına haram qatıb dərmanlamanı gecə vaxtı aparmalı oldular ki, təsiri yaxşı olsun.

Şöbə müdiri Ə. Əliyev fermer Eyvaza və ərazi nümayəndəsi Akifə pambıq kollarının boyunun sürətlə artdığını göstərib:

- Diqqətlə baxın, - deyir, - aşağı hissədə yan budaqların əmələ gəldiyi hər buğumun arası 4-4,5 santimetr olduğu halda, bitkilərin yuxarı hissəsində həmin məsafə 9-10 santimetrdir. Bu, əsasən, yağış suyunun yaratdığı inkişafla bağlıdır. Ona görə kolların boy inkişafını ləngitmək üçün təcili olaraq "OVX" aparatı ilə "Mepaquat Xlorid" məhlulu çiləmək lazımdır. Yoxsa, bitkilər bara yox, boya güc qoyar. Onu da deyim ki, yolboyu bir çox sahələrdə birinci suvarmanın başa çatdırıldığını gördüm. Çalışın, nəmliyi vaxtında yaradıb kultivasiya işini lazımi zamanda aparasınız. Özünüz məndən də yaxşı bilirsiniz, bunlar məhsuldarlığa təsir edən mühüm amillərdir. Gördüyünüz kimi, havalar nisbətən sərin keçir. Bu, sovka üçün münbit şərait deməkdir. Hər bir sahəni xüsusi nəzarətdə saxlamaq lazımdır. Elə edin ki, zəhmətlə yetişdirdiyiniz məhsulu o həşərat əlinizdən almasın. Özü də dərmanlamanı suvarmadan əvvəl aparmaq lazımdır.

Fermer Eyvaz Məlikovu kənara çəkib bir neçə sualıma cavab verməsini xahiş edirəm.

- Çox sağ olun. İşlərimiz, görürsünüz də, Allaha şükür, pis getmir, - deyir. - 8,4 hektara pambıq əkmişəm. Müqavilə bağladığım "MKT - İK" MMC Salyan filialının rəhbəri Bahəddin Leysanov, ümumilikdə filialın bütün işçiləri şumdan başlamış məhsulun yığılmasına qədər həmişə yanımızdadırlar. Texnika, toxum, mineral gübrələr, pambığın alaqdan təmizlətdirilməsi üçün işçilərə verdiyimiz nağd pul və digər vasitələrlə bizi yüksək səviyyədə, necə deyərlər, operativ şəkildə təmin edirlər. Bəzi şirkətlərdə alaq otlarını vurdurmaq, becərmə işlərini zamanında aparmaq üçün pulun vaxtında verilmədiyini eşidirik. Bizdə isə belə hallar yoxdur. Çiyid səpinində hər hektara 150 kiloqram ammofos, birinci kultivasiya ilə 200 kiloqram azot vermişəm. İndi isə 200 kiloqram karbamid gübrəsi verirəm. Bitki də canlıdır. Qulluq, qayğı görəndə o da yaxşı inkişaf edir, bol məhsulla səni sevindirir.

Fermer əldə etdiyi uğurlardan da danışdı:

- Keçən il pambıq əkdiyim sahənin hər hektarında 47 sentner məhsul götürdüm. Qazancım yaxşı oldu. Bu il isə daha yüksək - hektardan 50-55 sentner arası məhsul gözləyirəm. Taxıl əkməyi də yaddan çıxarmıram. Axı, çörək hər şeydən əvvəldir. Zəmilərdən 50 sentnerdən çox taxıl biçmişəm.

Fermerə bundan sonrakı işlərində səmərəli fəaliyyət və bol məhsul əldə etməsini arzulayıb:

- Pambıq yığımı zamanı görüşərik, - deyirəm və geri - rayon mərkəzinə qayıdıram.



Məlumat üçün bildirək ki, bu ilin yazında Salyan rayonu ərazisində fəaliyyət göstərən 4 şirkətin - "MKT- İK" MMC, "P-Aqro" MMC, "Azərpambıq" MMC Salyan filialları və "Salyan Aqroparkı" tərəfindən 1185 fermerlə müqavilə bağlanılıb. Hazırda 3-cü kompleks becərmə işləri aparılır. İndiyə kimi 78 min hektara yaxın pambıq sahəsinə azot və karbamid yemləmə gübrəsi verilib, 1500 hektarda birinci suvarma işləri başa çatıb. 22 min hektarda xəstəlik və ziyanvericilərə qarşı mübarizə tədbirləri görülüb, 5 min hektara alaq otlarına qarşı herbisid səpilib.

Əvvəlki illərdən fərqli olaraq pambığın və digər kənd təsərrüfatı bitkilərinin suvarılmasında heç bir problem yoxdur.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***






# ŞUŞA İslam dünyasının mədəniyyət paytaxtıdır






● Şuşa Bəyannaməsi



# Yeni reallıqlara yol açan əməkdaşlıq

**Şuşa milli varlığımızın ifadəsi, hər bir azərbaycanlının qəlbində xüsusi yeri olan müqəddəs və əziz məkandır. Şuşa bizim özünütəsdiqimizdir. Bu şəhəri biz adlandırmışıq, biz qurub yaratmışıq. Hazırda Qarabağda, Şərqi Zəngəzurda həyata keçirilən işlər Azərbaycan dövlətinin sülh niyyətinin, regionumuzu davamlı inkişaf, rifah və xoşbəxtlik məkanına çevirmək arzusunun ifadəsidir.**

### Bu günə və gələcəyə atılmış imzalar

2021-ci ilin 15 iyununda iki qardaş ölkənin dövlət rəhbərləri - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan azad Şuşada müttəfiqlik münasibətləri haqqında bəyannaməyə imza atdılar. Beynəlxalq ictimaiyyət bir daha şahid oldu ki, hərbi əməliyyatları uğurla başa çatdıran, işğalçı ölkənin ordusunu sıradan çıxaran Azərbaycan dövləti bu dəfə döyüşləri eyni qalibiyyətlə diplomatik səngərlərdə davam etdirir, sanlı qələbəmizi daha da möhkəmləndirir. "Bu bəyannamədə göstərilən bütün müddəalar bizim gələcək iş birliyimizin təminatçısıdır", - deyən Azərbaycan Prezidenti İlham Əliyev iki qardaş ölkə arasındakı münasibətlərin daha geniş strateji səviyyəyə yüksəldiyini, bölgənin parlaq gələcəyinə yol açan əməkdaşlıq olduğunu xüsusi vurğulayırdı.

Bu, böyük bir tarixi nailiyyət idi! Azərbaycan və Türkiyə liderlərinin ölkəmizin Vətən müharibəsindəki Zəfərindən sonra regionda yaranmış yeni tarixi reallığa atılan möhtəşəm imzalar idi!

11 fevral 2022-ci ildə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın imzası ilə "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" Şuşa Bəyannaməsinin təsdiqinə dair" qanun təsdiqləndi. 2022-ci il fevralın 12-də isə Azərbaycan Prezidenti İlham Əliyev Şuşa Bəyannaməsinin təsdiq edilməsi barədə qanunu imzaladı. Bununla da Azərbaycan və Türkiyə tarixi üçün böyük əhəmiyyətə malik Şuşa Bəyannaməsi qüvvəyə mindi.

Bu tarixi sənəd iki dövlət arasında münasibətlərin geostrateji əhəmiyyətini daha da artırdı. 44 günlük Vətən müharibəsi nəticəsində Qarabağın, Şərqi Zəngəzurun işğaldan azad edilməsindən sonra regionda yaranmış yeni tarixi reallıqda proseslərə xüsusi yön verdi. Eləcə də Azərbaycan və Türkiyə münasibətlərinin zamanın çağırışlarına uyğun şəkildə bütün müstəvilərdə davamlı inkişafını təmin etdi.

Türkiyə və Azərbaycan arasındakı müttəfiqlik münasibətlərinə dair elə bir real və potensial əməkdaşlıq sahəsi yoxdur ki, Şuşa Bəyannaməsinin məzmunundan kənarda qalsın. İki ölkə arasındakı strateji müttəfiqlik əlaqələri siyasət, beynəlxalq arenada birgə əməkdaşlıq, iqtisadiyyat, enerji təhlükəsizliyi, nəqliyyat, mədəniyyət, təhsil, ordu quruculuğu və digər əhəmiyyətli sahələri özündə ehtiva edir. Bu mənada Şuşa Bəyannaməsi bölgəmizdə sabitlik, təhlükəsizlik, dayanıqlı inkişaf mühitinə zəmin yaradır, regionda inteqrasiya proseslərini stimullaşdırır.

### Birliyi möhkəmləndirən inkişaf niyyətləri

Müasir dünyamızda iqtisadiyyat sülhün möhkəmləndirilməsində, xalqlar və dövlətlər arasında effektiv kommunikasiyanın qurulmasında, maraqların uzlaşdırılmasında və inteqrasiya proseslərinin genişlənməsində çox mühüm rol oynayır. Şuşa Bəyannaməsinin iqtisadi baxımdan da əhəmiyyəti çox böyükdür. Bu sənəddə nəzərdə tutulmuş müddəalar, bəyan edilmiş strateji niyyətlər bölgəyə yeni sərmayə qoyuluşu prosesini stimullaşdırır. Regionun getdikcə artan investisiya potensialı yeni iqtisadi münasibətlərin formalaşmasına şərait yaradır. Xüsusilə azad yurdlarımızda müasir iqtisadiyyatın ən perspektivli sahələrindən olan turizmin inkişafı üçün geniş imkanlar formalaşdırır.

Azərbaycan və Türkiyə arasında hərbi, müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələlərinin Şuşa Bəyannaməsində əks olunması xüsusilə böyük tarixi uğurdur. Sənəddə iki qardaş ölkənin bundan sonra da bir-birinin təhlükəsizliyini təmin edəcəyi bəyan olunur. Bu sahədə əməkdaşlıq müdafiə sənayesi məsələlərini də əhatə edir. Bəyannamə iki qardaş ölkənin silahlı qüvvələrinin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səylərin göstərilməsini də nəzərdə tutur.

### İnsanların rifahına xidmət edən siyasət

Bəyannamənin əzəli-əbədi yurdumuz Şuşa şəhərində imzalanması ilə yanaşı, onun tarixi günlə bağlı da iki əlamətdar məqamı var. Bunlardan birincisi sənədə iyunun 15-də imza atılmasıdır. Həmin gün Azərbaycanın Milli Qurtuluş Günüdür. Müstəqilliyin ilk illərində Azərbaycan ağır xarici və daxili təhdidlərlə üzləşərək parçalanmaq, müstəqilliyini itirərək dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üzləşmişdi. O ağır çağlarda Ulu Öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyət rəhbərliyinə qayıdıb Azərbaycanı xilas etdi. Müstəqil dövlətçiliyimizin təməllərini möhkəmləndirdi. Bu tarixdən 28 il sonra eyni gündə Şuşa Bəyannaməsinin imzalanması da Azərbaycanın müstəqilliyini daimi, əbədi və dönməz edən qətiyyətli addımlardandır. Belə bir tarixi qərar müasir dünyamızda Azərbaycan və Türkiyəni daha da qüvvətləndirir. Bir-birinə arxalanan, inanan, güvənən iki qardaş ölkəni regionda böyük gücə çevirir.

Cənubi Qafqazda yaranmış yeni reallığı iki qardaş ölkə birgə formalaşdırır və bütün dünya bu reallığı qəbul edir. Çünki bölgədə təhlükəsizliyə, inkişafa, insanların rifahına xidmət edən bu siyasətin, bu reallığın alternativi yoxdur.

Bu il mayın 8-də həyatımızda mühüm bir tarixi hadisə baş verdi. Mədəniyyət paytaxtımız olan Şuşa şəhərinin ilk sakinləri 32 illik ayrılıqdan sonra doğma yurdlarına qayıdıb yeni mənzillərində yerləşdilər. Qısa müddətdə Şuşada sakinlər üçün tikilmiş gözoxşayan yaşayış kompleksi dövlətimizin daha bir uğur rəmzinə çevrildi. Ordumuzun gücü ilə torpaqlarımızı işğaldan azad etmiş, Azərbaycan dövlətinin ərazi bütövlüyünə, suverenliyinə nail olmuş Müzəffər Ali Baş Komandan İlham Əliyev azad yurdlarımızın dirçəldiləcəyi ilə bağlı verdiyi sözləri də tutdu və bunun üçün böyük imkanlar yaratdı. Ordumuzun irəlilədiyi şəhərlərimizdə, kəndlərimizdə indi də iqtisadiyyatımız irəliləyir. Bu torpaqlar addım-addım inkişaf etdirilir, dirçəldilir. Azərbaycan Prezidentinin gələcəyə strateji baxışında bölgənin sabahı tam aydın şəkildə təsəvvür edilir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

● Səhnə xadimləri

# Sənətə böyük ehtiramla...

## Xalq artisti Barat Şəkinskayanın anadan olmasından 110 il ötür

**Qədim Şuşada dünyaya gələn Barat Şəkinskayanın ulu babaları xan olmuşlar. Ata babası, çar zabiti, polkovnik Süleyman xan Qarabağ xanı İbrahimxəlil xanın və Şəki xanı Məhəmməd Hüseyn xan Müştaqın nəvəsi idi. Süleyman xanın atası Səlim xan Şəkinin xanı olmuşdu. Barat Şəkinskayanın atası Həbib xan isə Çar Rusiyası zamanında Zəngəzur qəzasının Dığ nahiyəsində polis pristavı, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Zəngəzur qəzasının rəisi vəzifələrində işləmişdi. Zəngəzurun Akara, Muradxanlı, Novruzlar kəndləri Həbib xana məxsus idi.**



Barat xanımın ana tərəfi də əsilzadəydi. Onun anası Ağca xanım bəy qızı idi. 1914-ci il iyunun 7-də dünyaya gələn qızları sağ qalsa da, çox zəif idi. Körpə iyirmi bir gün sonra ilk dəfə ağlayanda qohumları onun yaşayacağına inanmışdılar. Həmin gün qızın dünyaya əsl gəlişi günü hesab edilmişdi. Təvəllüd tarixini də 1914-ci il 28 iyun yazmışdılar. İyirmi bir gün adsız qalan qıza "Tanrının hədiyyəsi" mənasını verən Barat adını qoymuşdular.

Barat Şəkinskaya ilk təhsilini Şuşada almışdı. Səhnəyə də birinci dəfə bu şəhərdə 1920-ci ildə "Şəbih" tamaşasında Səkinənin rolunda çıxmışdı.

1920-ci il Aprel işğalı xəbəri Baratgilin ailəsinə də kabus kimi gəlmişdi. Bolşevik hökumətinin təqibləri onun atasını da evindən, ailəsindən ayrı salmışdı. Həbib xan iki kiçik qızını və hamilə həyat yoldaşını qayınanasına tapşırmışdı. Vətəni tərk edəndə ümidli olub ki, fürsət tapanda gəlib ailəsini aparacaq. Onun qətlə yetirilməsi barədə yalandan xəbər yaymışdılar.

Barat xanımgil İrana gedə bilmədilər. Faytonla Həbib xanın adamlarının gözlədikləri yerə çatmamış quldurlar onları qarət etdilər. Kor-peşman geri qayıtdılar.

Gəncədə yaşayan xalası Rəxşəndə xanım öz adamlarını göndərib onları həmin şəhərə apartdırdı. 1923-cü ildən Barat xanım anası, bacı-qardaşı ilə bilikdə bu şəhərdə yaşamağa başladı. Gəncə Həmkarlar İttifaqının "Fəhlə klubu"nda 1929-cu il sentyabrın 18-də aktrisa kimi işə başladı. 1930-cu il iyunun 25-də Pedaqoji məktəbi bitirən Barat xanım Sərkər kənd məktəbinə müəllim təyin olundu.

Səhnə xəyalından çıxmırdı. Müəllim işlədiyi zaman da "Qadınlar klubu"nun, "İşçi klubu"nun və "Dəmiryolçular klubu"nun dram dərnəklərində həvəskar aktrisa kimi fəaliyyət göstərirdi. "Fəhlə klubu"nun direktoru, Gəncədə tanınmış həvəskar aktyor və rejissor Mir İbrahim Həmzəyevlə bir-birini də o zamanlar sevdilər. On altı yaşlı Barat xanım anasının narazılıqlarını eyninə almadı. 1931-ci ilin iyulunda Mir İbrahimlə ailə qurdu. 1932-ci il mayın 3-də qızı dünyaya gəldi. "Od gəlini"nin qəhrəmanı Solmazın şərəfinə körpəyə bu adı verdilər.

İki il sonra ayrıldılar. Teatrdan işdən çıxdı. Qızını anasına tapşırıb tibb təhsili almaq üçün Bakıya gəldi.

Bir gün yolda vaxtilə eyni dərnəkdə çalışdığı, Akademik Milli Dram Teatrının rejissoru işləyən Adil İsgəndərovla rastlaşdı. Adil İsgəndərov onu rejissor kimi ilk debütü olan "Polad qartal" tamaşasında uşaq roluna dəvət etdi. Barat Şəkinskaya Şəfiqə rolunu oynadı. 1935-ci il sentyabrın 1-də Akademik Milli Dram Teatrının (ovaxtkı Məşədi Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrı) aktyor truppasına qəbul edildi. 1936-cı il avqustun 8-də teatrda işləyən rejissor Şəmsi Bədəlbəyli ilə ailə qurdu. Yeddi il sonra Şəmsi bəydən də ayrıldı.

Artıq aktrisa kimi məşhurlaşmış, Əməkdar artist adına layiq görülmüş Barat Şəkinskaya Gəncəyə qayıtdı. Gəncə Dövlət Dram Teatrında çalışdı. 1944-cü il noyabrın 16-da Barat xanım həmin teatrın baş rejissoru Mehdi Məmmədovla ailə qurdu. Onlar 1944-cü ilin dekabrında Bakıya köçüb teatrda işə başladılar. 1946-cı il mayın 29-da oğulları Elçin dünyaya gəldi. Uşaq balaca ikən valideynləri ayrıldı.

Dövrünün məşhur aktrisalarından olan Barat Şəkinskayanın səhnə yaradıcılığı çox zəngin idi. Aktrisa "Göy quş" (Tiltil), "Kral Lir" (Kardeliya), "Romeo va Cülyetta" (Cülyetta), "Otello" (Dezdemona), "On ikinci gecə" (Viola), "Polad qartal" (Şəfiqə), "Məkr və məhəbbət" (Luiza), "Mehmanxana sahibəsi" (Mirandalina), "Rəqs müəllimi" (Florela), "Günahsız müqəssirlər" (Kruçinina) və digər tamaşalarda əsas rolların ifaçısı oldu.

1956-cı ildə teatrdan çıxdı. Dörd il "Azərbaycanfilm" kinostudiyasında aktrisa, filarmoniyada aparıcı, yenicə açılan televiziyada diktor işlədi.

Barat Şəkinskaya 1940-cı ildə Əməkdar artist, 1949-cu ildə Xalq artisti fəxri adlarına layiq görüldü. Görkəmli sənətkar 1999-cu il yanvarın 14-də səksən dörd yaşında vəfat etdi.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Qafqazın incisi

# Keçmiş şöhrətinə qovuşan Şuşa

**Qarabağın döyünən qəlbi, Azərbaycan musiqisinin beşiyi Şuşa 1992-ci il mayın 8-də Ermənistan ordusu tərəfindən işğal olundu. İşğal dövründə bu gözəl diyardakı yüzlərlə tarixi abidə dağıntılara məruz qaldı, məhv edildi.**



İşğal zamanı erməni qəsbkarları XIX əsrin görkəmli Azərbaycan şairi Xurşidbanu Natəvanın evini vəhşicəsinə yandırdılar. Şərq memarlıq sənətinin incisi və Şuşanın rəmzi sayılan Gövhər ağa məscidi viran qoyuldu. Şuşaəsilli böyük Azərbaycan musiqiçiləri Üzeyir bəy Hacıbəylinin və Bülbülün ev-muzeyləri dağıdıldı. Şuşanın gerçək tarixi və mədəni siması yer üzündən silinmək təhlükəsi ilə üz-üzə qaldı. Xurşidbani Natəvanın, Üzeyir bəyin və Bülbülün heykəlləri erməni vandalları tərəfindən güllələndi.

Şuşa təkcə tarixi tikililəri ilə deyil, eyni zamanda havasının saflığı və müalicəvi əhəmiyyəti baxımından da çox qiymətli və dəyərlidir. XIX əsrin sonu XX əsrin əvvəllərində Qafqazın musiqi mərkəzinə çevrilən Şuşada dünyanın heç bir yerində olmayan xarıbülbül gülü bitir. Qarabağ xanlığının paytaxtı olan Şuşanı zaman-zaman "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Şərqin konservatoriyası" adlandırıblar. Şuşada dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin böyük əməyi sayəsində Azərbaycanda ilk dəfə peşəkar musiqi təhsilinin bünövrəsi qoyulub.

Uzun illərdən bəri Şuşanın işğalda qalması hər bir azərbaycanlının qəlbini göynədirdi, ürəyini yandırırdı. Ordumuz gücləndikcə bu gözəl şəhərin işğaldan azad olunacağına xalqımızın inamı artırdı. Gözəl payız günlərinin birində ümidlərimiz, arzularımız çiçək açdı. 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi alovlandı. Rəşadətli Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında uğurlu əks-hücum əməliyyatına başladı.

Şuşa şəhəri 2020-ci il noyabrın 8-də Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində düşməndən azad olundu. 8 noyabr Azərbaycan xalqının və dövlətinin müasir tarixinə qızıl hərflərlə yazıldığı gün oldu. Əziz Şuşamızın erməni cəlladlarının caynağından azad olması xəbəri dünyada yaşayan bütün azərbaycanlıları ürəkdən sevindirdi. Bizə qələbə sevinci bəxş edən Azərbaycan Ordusu dünya hərb sənətində öz dədə-baba torpaqlarının işğaldan azadlığı uğrunda parlaq döyüş nümunəsi göstərdi.

Bu gün azad nəfəs alan Şuşa keçmiş şöhrətinə qovuşur. Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq göstəriş və sərəncamlarına əsasən hazırda şəhərdə tarixi abidələrin, yolların, kommunikasiya xətlərinin, ümumiyyətlə, bütün infrastrukturun bərpası və yenilənməsi ilə bağlı mühüm işlər aparılır. Şuşa yenidən dünya mədəni irsinə öz töhfəsini verməyə hazırlaşır.

Təmir və bərpa işləri başa çatandan sonra bu məkanda həyat yenidən qaynayacaq. Təbiətin Azərbaycana bəxş elədiyi qədim diyar yenə də öz gözəlliyi ilə gələnləri, görənləri heyran edəcək, dünyaya meydan oxuyacaq. Böyük beynəlxalq tədbirlərə evsahibliyi edəcək. Şanı, şöhrəti yenə də dünyaya yayılacaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# "Süleyman Ələsgərov" adlı ilk fundamental biblioqrafiya nəşr edilib

**Görkəmli Azərbaycan bəstəkarı, tanınmış dirijor və pedaqoq, Dövlət mükafatı laureatı, Xalq artisti Süleyman Ələsgərovun anadan olmasının 100 illiyi tamam olur.**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 22 fevral 2024-cü ildə Xalq artisti Süleyman Ələsgərovun 100 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb. Bununla bağlı olaraq Milli Kitabxananın əməkdaşları tərəfindən "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından "Süleyman Ələsgərov" adlı ilk fundamental biblioqrafiya hazırlanaraq nəşr edilib.

Kitabxanadan bildirilib ki, 1945-2024-cü illəri əhatə edən biblioqrafiyada "Süleyman Ələsgərov həyat və yaradıcılığının əsas tarixləri", "Görkəmli şəxsiyyətlər və sənət dostları Süleyman Ələsgərov haqqında" bölmələri, sənətkarın bəstələdiyi musiqi əsərləri, səs yazıları, həyat və yaradıcılığı haqqında kitablar, dissertasiyalar və avtoreferatlar, dövri mətbuatda, məcmuələrdə çap olunan məqalələr toplanıb, müvafiq bölmələr üzrə qruplaşdırılaraq təqdim edilib.

# Şuşada ilk dəfə kəlağayı festivalı

**Azərbaycanın mədəniyyət paytaxtı Şuşada ilk dəfə kəlağayı festivalı keçirilib. Festival "Sazlı, sözlü kəlağayı günləri" layihəsi çərçivəsində Şuşa Dövlət Qoruğu İdarəsinin dəstəyi, Mirvarid Dilbazi Poeziya Məclisi İctimai Birliyinin təşkilatçılığı ilə həyata keçirilib.**



Festival çərçivəsində Şuşa sakinlərinə qədim kəlağayılar, qurama əl işləri, rəsm əsərləri, kitablar təqdim edilib və konsert təşkil olunub. Sərgidə 200 qədimi kəlağayı, Güllü Eldar Tomarlının toxunma əl işləri, rəssam Gülnarə Məmmədovanın rəsm əsərləri, quramaçı Aybəniz Camalovanın əl işləri, yeni işıq üzü görən "Anam - kəlağaydı, kəlağay - anam..." kitabı təqdim olunub.



# Avro-2024





## Montella növbəti hədəfi açıqladı



**"Bir az yorğunuq. Çox vacib bir matç oldu. İlk dəqiqədən sona kimi komanda ruhunu əks etdirdik. Bu turnirdə komanda ruhunu ilk dəfə idi ki, gördük". Bu sözləri Türkiyə millisinin baş məşqçisi Vinçenzo Montella Avstriyaya qalib gəldikləri oyundan (2:1) sonra mətbuat konfransında deyib.**

O bildirib ki, Niderlandla qarşıdan gələn oyuna da bu cür hazırlaşacaqlar: "Çoxlu azarkeşimiz var. Onlar ehtiraslı, həvəsli və inanılmazdırlar. Bilirik ki, bütün dünyadakı türklər bizimlədir. Çox əzmlə çalışdığınız zaman arzularınıza çata bilərsiniz. Biz bunu etdik. Niderlandla oyuna da ən yaxşı və eyni şəkildə hazırlaşacağıq".

Montella artıq ilkin hədəflərinə çatdıqlarını deyib: "Qrup mərhələsinə baxanda deyə bilərəm ki, heç bir matç asan deyil. Biz tək ürək kimi çıxış etməyə çalışdıq. Növbəti matç üçün hər şey mümkündür. Bilirik ki, bu, bir turnirdir. Düzünü desəm, birinci hədəfimiz 1/4 final idi".



## Türklər bitdi demədən bitməz

**"Biz bitdi demədən bitməz" şüarı Türkiyə milli komandasının əsas devizinə çevrilib. Bunun bir daha "Avro-2024"ün 1/8 final mərhələsinin Avstriya ilə qarşılaşmasında şahidi olduq. Matçdan öncə favorit avstriyalılar idilər. Həm taktiki, həm də fiziki göstəricilərdə üstünlükləri gözlənilən idi. Lakin bütün bu göstəricələrə rağmən türklər əzmkarlıq nümayiş etdirib Avstriya seçməsinə 2:1 hesabı ilə qalib gələrək 1/4 finala adladılar.**

Türkiyə yığması daim xaotik futbola, həddən ziyadə emosionallığa görə tənqid edilib. Amma unutmayaq ki, qazandıqları uğurları da məhz bu keyfiyyətlərinə görədir. Belə ki, qardaş ölkə millisinə dəvət alan məşqçilər oyun planı, şablonu yaratmağa çalışsalar da, uğursuzluğa düçar olublar.

Ola bilsin ki, Türkiyə yığmasında başqa cür alınmır.

Ola bilsin ki, turnirin ən sistemli futbolunu oynayan Niderland yığmasını da bunun hesabına məğlub etdilər...

İndi isə bəzi maraqlı statistik göstəricilərə nəzər salaq. Türkiyə "Avro-2008"dən sonra ilk, tarixində isə 4-cü dəfə dünya və Avropa çempionatlarının final mərhələlərində 1/4 finala çıxıb. Türkiyə belə futbol tarixində ilk dəfə Avropa çempionatının pley-off matçında 90 dəqiqəyə qalib gəlib. 2-ci belə uğurunu əldə edən komanda "Avro- 2008"in Xorvatiya ilə 1/4 finalındakı qələbəni penaltilər seriyasında əldə edib.

Merih Demiral "DÇ-1998"in yarımfinalında iki qol vuran Lilian Türamdan sonra final mərhələsinin pley-offunda dubl edən ilk müdafiəçi olub. Demiral Avropa çempionatlarında dubl edən 3-cü müdafiəçidir. Macarıstanlı Deje Novak "Avro-1964"ün Danimarka ilə 3-cü yer uğrunda matçında, fransalı Jan-Fransua Domerq "Avro-1984"ün Portuqaliya ilə yarımfinalında fərqlənib. Demiral həmçinin Avropa çempionatlarının pley-offunda dubl edən ilk türkiyəlidir. O, qitə çempionatlarında bunu bacaran 3-cü türkiyəlidir. Eyni zamanda 57-ci saniyədə vurduğu qol Avropa çempionatları tarixində pley-offda vurulan ən erkən topdur.

Onu da əlavə edək ki, Arda Gülər eyni Avropa çempionatında həm qol, həm də məhsuldar ötürmə müəllifi olan üçüncü yeniyetmədir. İngiltərəli Ueyn Runi və portuqaliyalı Kriştiano Ronaldo "Avro-2004"də belə uğura imza atıb.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

## 1/4 FİNAL MƏRHƏLƏSİ

**5 iyul**

**20:00. İspaniya - Almaniya (Berlin)**
**23:00. Portuqaliya - Fransa (Hamburq)**

**6 iyul**

**20:00. İngiltərə - İsveçrə (Düsseldorf)**
**23:00. Niderland - Türkiyə (Berlin)**

## UEFA Merihi cəzalandıra bilər



**"Avro-2024"ün 1/8 finalında Avstriya ilə oyunda dubl edən Türkiyə millisinin üzvü Merih Demiral UEFA tərfindən cəzalandırıla bilər. Buna səbəb müdafiəçinin qol sevincini türklüyün rəmzi hesab edilən "bozqurd" işarəsi ilə qeyd etməsidir. Avropa futbol təşkilatı məsələ ilə bağı araşdırmaya başlanıldığını açıqlayıb.**

Merihin bu hərəkəti UEFA-nın İntizam Komitəsi tərəfindən uyğunsuz davranış kimi qiymətləndirilib. Futbolçu özü isə oyundan sonra qol sevinci barədə bunları deyib: "Türk olduğum üçün çox xoşbəxtəm. Çox qürur duyuram. Qoldan sonra bunu iliklərimə qədər hiss edirəm. Ona görə belə bir şey hiss etmək istədim. Azarkeşlərimiz bizimlə qürur duyur. Tribunada "bozqurd" işarəsi göstərənləri görmüşdüm. Mən də bundan həvəsləndim. Olduqca normaldır. Burada heç bir mesaj yoxdur. Mən sadəcə nə qədər qürurlu və xoşbəxt olduğumu göstərmək istədim".

## "Nağıl başa çatdı"

**Rumıniya millisinin baş məşqçisi Eduard Yordenesku Niderlanda uduzaraq (0:3) turnirlə vidalaşmaqları haqqında danışıb.**



Mütəxəssis komandasının mərhələ adlamaq üçün əlindən gələni etdiyini deyib: "İki il əvvəl başlayan nağılımız bu gün başa çatdı. Komanda əlindən gələni etdi, lakin son nəticə məyusedicidir. Biz daha çox irəliyə getmək istəyirdik və bunun üçün bütün gücümüzü verdik. Rumınlar özlərinə inanmalıdırlar. Bu, komandaya fantastik nailiyyətlər gətirir. Rumıniya yeni nəsil futbolçular yetişdirməlidir. Millinin futbolçuları nümunə kimi çıxış etməlidirlər. Hazırda ölkə əhalisi ilə milli komanda arasında qurulan əlaqə bizim üçün yeni başlanğıc ola bilər".

## Türkiyə millisində ciddi itkilər var



**Türkiyə millisi 1/4 finalda Niderlandla keçiriləcək oyuna itkilərlə çıxacaq. Yarımmüdafiəçilər Orkun Kökcü və İsmayıl Yüksek cəzalı duruma düşüb.**

Hər iki oyunçu 1/8 finalda Avstriya ilə görüşdə sarı vərəqə alıb. Bu, onların turnirdəki ikinci sarı vərəqəsi olduğundan hər iki futbolçu qarşıdakı matçı buraxmalı olacaq.

Qeyd edək ki, iyulun 6-da keçiriləcək Niderland - Türkiyə matçı Bakı vaxtı ilə saat 23:00-da başlayacaq.



## Arda Gülərdən qələbə şərhi

**Türkiyə millisinin üzvü Arda Gülər Avstriyanı məğlub edərək (2:1) 1/4 finala adlamaqları haqda danışıb.**

19 yaşlı yarımmüdafiəçi bu qələbə üçün çox çalışdıqlarını deyib: "Həqiqətən də inanılmaz bir axşam oldu. Xalqımızı sevindirdiyimiz üçün xoşbəxtik. Bizim müəyyən bir oyun planımız var idi. Stadiondakı atmosfer də möhtəşəm idi. Azarkeşlər bizi alovlandırırdılar. Biz də bunun qarşılığını verdik. Bu gün baş məşqçimiz məni mərkəz hücumçusu kimi oynatdı. O, məndən oyun qurucusu olmağımı istədi. Mən də Avstriya ilə matçda bunu bacardığım üçün çox xoşbəxtəm. Daha əvvəl Avstriya ilə yoxlama oyununda pis nəticə qazanmışdıq. Çünki hamımız bunun bir yoxlama oyunu olduğunu anlayırdıq. Rəqibdən daha yaxşı vəziyyətdə olduğumuzu bilirdik. Çox çalışdıq və qələbə qazandıq. Berlini xəyal edə bilirəm. İnşallah, növbəti oyunda da xalqımızı sevindirərik".

## Kuman problemlərdən danışdı



**Niderland millisinin baş məşqçisi Ronald Kuman Rumıniyaya qalib gəldikləri oyun haqda danışıb.**

3:0 hesablı qələbəni şərh edən mütəxəssis oyunlarındakı problemlərdən də bəhs edib: "Bəzən niyə zəif oynadığımızı və ya əksinə, böyük zirvələrə çatmağımızı izah etmək çətindir. Bu gün pis başladıq, amma sonra öz oyunumuzu tapdıq və rəqibə problemlər yaratmağa başladıq. Bəlkə də buna diqqət yetirməliyik. İkinci qolu vurmağımız çox çəkdi, amma ümumilikdə hücumçularımız rəqibə çoxlu problem yaratdı".

Kuman turnirdə asan rəqibin olmadığını əlavə edib: "Komandada çoxlu istedadlı futbolçularımız var, amma insanların bu heyəti 1988-ci ilin komandası ilə müqayisə etmələri üçün ilk növbədə böyük bir uğur qazanmalıyıq. O vaxtdan futbol çox dəyişib. Son bir neçə oyunda gördünüz ki, sözün həqiqi mənasında bütün komandalar növbəti mərhələyə çıxmaqda çətinlik çəkir".

## Malenin dublu tarixə düşdü



**Niderlandlı hücumçu Avropa çempionatları tarixində sonradan meydana çıxıb dubl edən 4-cü futbolçu olub.**

Doniel Malen 1/8 finalda Rumıniya ilə görüşdə bu nailiyyətə imza atıb.

Fasilədən sonra meydana daxil olan 25 yaşlı forvard 83-cü və 90+3-cü dəqiqələrdə fərqlənib. Malen almaniyalılar Diter Müller (1976) və Oliver Birhoff (1996), eləcə də serbiyalı Savo Miloşeviçin uğurunu təkrarlayıb.

# Hotellərə ulduz dərəcələri verilib və rezervasiya platformasının təqdimatı keçirilib

**İyulun 3-də Dövlət Turizm Agentliyinin təşkilatçılığı ilə Milli Ulduz Təsnifatından keçmiş hotellərə ulduz dərəcələrinin verilməsi və Milli Rezervasiya Platformasının təqdimatı tədbiri keçirilib.**



AZƏRTAC xəbər verir ki, tədbirdə Dövlət Turizm Agentliyinin, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin və Dövlət Reklam Agentliyinin rəhbər şəxsləri iştirak ediblər.

Tədbirdə çıxış edən Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev Azərbaycanın müsbət turizm imicinin formalaşmasına hotellərdə olan infrastruktur, şərait, xidmət səviyyəsi və digər meyarların birbaşa təsir etdiyini bildirərək, bunların qiymətləndirilməsinin hotellərin ulduz təsnifatından keçməsi və müvafiq ulduz dərəcələrini əldə etmələri ilə mümkün olduğunu qeyd edib.

Milli Ulduz Təsnifatı əsasında 200-dən çox hotelə ulduz dərəcələrinin təyin olunduğunu bildirən Fuad Nağıyev proses boyu çoxsaylı uyğunsuzluqlar səbəbindən təkrar auditə qalan və ya təsnifata yenidən müraciət etməli olan hotellərin mövcudluğunu diqqətə çatdırıb. Fuad Nağıyev 40-a yaxın hotelə uyğunsuzluqları aradan qaldırmaq üçün müəyyən vaxtın verildiyini və yenidən audit olunacaqlarını qeyd edərək, prosesdə Azərbaycan Turizm Bürosu və Azərbaycan Hotel Assosiasiyası tərəfindən hotellərə konsultativ dəstəyin göstərilməsinin davam etdiyini vurğulayıb.

Agentlik sədri qarşıda duran əsas hədəfin COP29 kimi beynəlxalq tədbirin ən yüksək səviyyədə təşkil edilməsində hotelçilik sənayesinin rolunun gücləndirilməsi olduğunu və bu sənayenin COP29 tədbiri dövründə də dövlətimizin adını yüksək tutmaq üçün səylə çalışacağına inandığını bildirib.

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli çıxışında ölkə iqtisadiyyatının sürətli və dayanıqlı inkişafında əsaslı rol oynayan turizm sənayesinin əhəmiyyətini qeyd edib.

Tədbirdə digər çıxış edənlər - Azərbaycan Hotel Assosiasiyası İctimai Birliyinin İdarə Heyətinin sədri Eldar Əlimuradov və Avropa Ulduz Təsnifatı Birliyinin ("Hotel Stars Union") prezidenti Markus Luthe turizm sahəsinin hər bir ölkənin iqtisadiyyatına ciddi təsir etdiyini, həmçinin sürətli və dayanıqlı inkişafına töhfə verdiyini vurğulayıblar.

Habelə turizm sektorunun əsas qollarından biri olan hotelçilik sferasında rəqabətliliyin təmin olunması üçün biznes subyektləri tərəfindən istehlakçı gözləntiləri istiqamətində keyfiyyət göstəricilərinin artırılması, turistik məhsul və ya xidmətlərin daha da inkişaf etdirilməsi diqqətə çatdırılıb. Həmçinin turizm sahəsində resursların səmərəli idarə olunması, iş proseslərinin optimallaşdırılmasına və xərclərin azaldılmasına töhfə verən yeni standartların qəbul edilməsinin vacibliyi vurğulanıb.

Tədbirdə eyni zamanda son dövrlərdə aktuallıq daşıyan halal turizmin inkişaf perspektivlərindən də bəhs edilib. İslami qaydalara cavab verən turizm xidmətləri və məhsullarının təklif edilməsinin müsəlman ölkələrindən gələn turistlər üçün cəlbediciliyi artıracağı qeyd olunub.

Sonra Milli Hotel Assosiasiyasının icraçı direktoru Günay Sağlam "Azərbaycan Hotel Ulduz Təsnifatı Sistemi: Cari vəziyyət və nəticələr", Azərbaycan Turizm Bürosunun Sənayenin inkişafı departamentinin direktoru Aytən Əlizamanlı "Hotel Dayanıqlılıq Əsasları" proqramı mövzularında təqdimatla çıxış ediblər.

Tədbirdə Dünya Səyahət və Turizm Şurası tərəfindən təsis edilən və Azərbaycan Turizm Bürosunun rəsmi tərəfdaşı olduğu "Hotel Dayanıqlılıq Əsasları" təşəbbüsünə qoşulmaq barədə məlumat verilib. Bildirilib ki, "Hotel Dayanıqlılıq Əsasları" proqramı yerləşmə sənayesinin qlobal dayanıqlılıq meyarlarına uyğunlaşmasına dəstək olmaq üçün ilkin atıla biləcək addımları ehtiva edir və bununla da dayanıqlılıq üzrə təşəbbüs göstərən bizneslərin fərqlənməsinə şərait yaradır.

Daha sonra Azərbaycan Turizm Bürosunun İdarə Heyəti sədrinin müavini Rəşad Əliyev Milli Rezervasiya Platforması barədə məlumat verib.

Həmçinin turistlərə hotel və digər yerləşmə vasitələrini daha rahat şəkildə rezerv etmək imkanı yaradan ilk Milli Rezervasiya Platformasının təqdimatı olub. Qeyd olunub ki, yerli rezervasiya platformasından istifadə edən hotellər, qonaq evləri, o cümlədən digər yerləşmə vasitələrinə imtiyaz və güzəştlər şamil ediləcək.

Sonda Milli Ulduz Təsnifatından keçmiş hotellərə ulduz dərəcələrinin verilməsi ilə bağlı mükafatlandırma mərasimi olub.

# "Journal of Petroleum Technology": Azərbaycan - sönməz Odlar yurdu

**Beynəlxalq Neft Mühəndisləri Cəmiyyəti ("Society of Petroleum Engineers" - SPE) tərəfindən nəşr olunan "Journal of Petroleum Technology" (JPT) iyulun 1-də məşhur amerikalı publisist Pet Devis Şimçakın Azərbaycanda enerjinin inkişafına həsr olunmuş geniş məqaləsini dərc edib.**

AZƏRTAC xəbər verir ki, "Azərbaycan - sönməz Odlar yurdu" sərlövhəli nəşrdə xüsusilə qeyd olunur: "Azərbaycanın COP29-a evsahibliyi etdiyi bir vaxtda, JPT ölkənin nəhəng neft və qaz ehtiyatları, boru kəmərləri ilə Xəzər dənizinin dərinliklərindən qazı və nefti Avropaya apardığı qədim İpək yolu boyunca unikal coğrafi yerləşmə sayəsində əldə etdiyi tərəqqi yoluna nəzər salır".

Jurnal milli neft sənayesinin inkişafının əsas mərhələlərini ətraflı işıqlandırıb və bu sahədə ölkənin uğurlarını sadalayır. Pet Devis Şimçak qeyd edib ki, dünyada ilk dəfə olaraq neft quyusu mexaniki üsulla məhz Azərbaycanda qazılıb və 1940-cı illərin sonlarında Azərbaycan dənizdə neft hasil edən ilk ölkə olub.

O, 1994-cü ildə "Azəri-Çıraq-Dərinsulu Günəşli" (AÇG) yataqlar blokundan neftin kəşfiyyatı, işlənməsi və hasilatı üzrə bağlanmış müqavilənin xüsusi əhəmiyyətini vurğulayıb. "Əsrin müqaviləsi" Azərbaycanın dünyanın aparıcı neft şirkətləri ilə imzaladığı ilk müqavilə oldu.

Nəşrdə göstərilir ki, ən böyük təbii qaz yatağı olan "Şahdəniz"in kəşfi və bu yatağın işlənməsi, hasilatına dair müqavilənin imzalanması milli energetika sahəsinin inkişafında yeni mərhələnin başlanğıcını qoyub. Məqalədə deyilir: "2007-ci ildə Cənubi Qafqaz boru kəməri ilə Gürcüstan və Türkiyəyə kommersiya qazının tədarükü başlandıqdan sonra Azərbaycan Avropanın qaz tədarükçüsünə çevrildi və enerji sənayesində özü üçün yeni səhifə açdı".

Müəllif ölkənin "yaşıl enerji"yə keçidlə bağlı uğurlarına xüsusi diqqət yetirib. O vurğulayıb ki, Azərbaycan bərpaolunan mənbələrdən (BEM) elektrik enerjisi istehsalını inkişaf etdirir, külək və günəş enerjisi istehsalını gücləndirir ki, bu da, öz növbəsində, Avropaya təbii qaz və digər enerji resurslarının tədarükünü artıracaq.

Dünya Bankının hesablamalarına görə, 2040-cı ilə qədər Azərbaycan Xəzər dənizində külək elektrik stansiyalarının quraşdırılması sayəsində 7 qiqavat elektrik enerjisi istehsal edə biləcək. Bərpaolunan enerji mənbələrindən enerji istehsalı üzrə iddialı layihələrin həyata keçirilməsinə dair dünyanın bir sıra iri şirkətləri, o cümlədən Azərbaycanın uzunmüddətli tərəfdaşı olan BP, həmçinin Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə razılaşmalar əldə olunub.

Qeyd edək ki, "Journal of Petroleum Technology" jurnalı 1949-cu ildən nəşr olunur. Bu, Neft Mühəndisləri Cəmiyyətinin neft kəşfiyyatı və hasilatında texnoloji irəliləyişləri, eləcə də təşkilatın özünü işıqlandıran flaqman jurnalıdır. JPT saytında "Oil and Gas Facilities", "Data Science and Digital Engineering" və "HSE Now" jurnalları dərc olunur.




# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*


# *Vitamin qəbul edərkən sağlamlığımızdan olmayaq*

**Vitaminlər təbii yolla qida məhsullarından alına bilən, orqanizmin bərpası və inkişafında mühüm rol oynayan, gündəlik qəbul edilməli üzvi birləşmələrdir. Vitamin ehtiyacını ödəməyin ən yaxşı yolu təbii qidalardan istifadə etməkdir. Bu mümkün olmadıqda immunitet zəifləyir, sümük, əzələ, sinir toxumalarında ciddi fəsadlar yaranır, orqanizmin müxtəlif xəstəliklərə qarşı davamlılığı azalır.**

Bəzi tibbi vəziyyətlər, genetik xüsusiyyətlər və yaş kimi faktorlara görə kifayət qədər təbii vitaminlər qəbul edə bilmədikdə, bu boşluq qida əlavələri ilə tamamlanır. Bioloji fəallığa malik qida əlavələrinin tərkibində amin turşuları, yağ turşuları, zülallar və müxtəlif bitki mənşəli ekstraktlar da daxil olmaqla məhdud çeşiddə digər maddələr də mövcud ola bilər. Qida əlavələri qəbul edərkən ilk növbədə orqanizmin əskikləri aşkarlanmalıdır. Unutmaq olmaz ki, vitaminlər yalnız mütəxəssis nəzarəti altında və tövsiyə olunan miqdarda istifadə edildikdə faydalıdır.




## Yağda və suda həll olunan vitaminlər

Fərqli istehlak modelinə malik olmaqla vitaminlər yağda və suda həll olunan növlərə ayrılır. Birinci qrupa aid edilən vitaminlərin həddindən artıq istifadəsi suda həll olunanlardan daha çox mənfi təsirlərə səbəb ola bilər. A, D, E və K kimi yağda həll olunan vitaminlər bədənin müəyyən hissələrində saxlanılarkən, digər suda həll olunan vitaminlər isə müəyyən dozalarda qəbul edildiyi müddətdə heç bir yan təsir göstərmir.

Gündəlik qəbul edilməsi çox vacib olan C vitamini immun sistemini və sinir keçiriciliyini dəstəkləməklə yanaşı, güclü bir antioksidantdır, lakin həddindən artıq olduqda qusma, qarın ağrısı və böyrək daşları meydana gələ bilər. İmmunitetin gücləndirilməsi üçün isə bu vitaminin qəbulu vacibdir.

İnsulin C vitamininin hüceyrəyə daxil olmasını təmin edir. Bu səbəbdən diabet və insulin müalicəsində bu vitamin əhəmiyyətli rola malikdir. Astma, yüksək təzyiq, infeksiyalar, ekzema, hepatit, mədə yarası, katarakta kimi bir çox xəstəliklərdə məhz C vitamininin azlığı müşahidə edilir.

Yağda həll olunan ən vacib vitaminlərdən biri olan E vitamini orqanizmi həm zəhərli təsirlərdən, həm də sərbəst radikallardan qoruyaraq, daha güclü hüceyrə quruluşunu təmin edir. E vitamini xalq arasında pis xolesterol adlanan LDL xolesterolunun oksidləşməsinin qarşısını alaraq, xərçəng və buna bənzər ciddi xəstəliklərdən qoruyur.

Sağlamlıq üçün önəmli olan vitaminlərdən biri də A vitaminidir. İnsan orqanizmi bu vitamini istehsal edə bilmir və o, yalnız qida və qida əlavələri vasitəsilə orqanizmə daxil olur. A vitamini görmə, dəri, saç, dırnaq və dişlərin normal inkişafı üçün vacibdir. Onun çatışmazlığı özünü ən çox gözün fəaliyyətində göstərir. Bu zaman gözün qidalanması və görmə qabiliyyəti zəifləyir. Lakin həddindən artıq A vitamini qaraciyərə toksik təsir göstərə bilər və dərinin soyulmasına, saç tökülməsinə, görmənin pozulmasına və əzələ zəifliyinə səbəb ola bilər.

Qidalar gündəlik D vitamini ehtiyacının ən çox 2-3 faizini ödəyə bilər. Qalanını isə dərimizi Günəş işığına verməklə ala bilərik. Əslində, inək südündəki D vitamini də təbii və mükəmməldir, lakin süd bəzi sənaye proseslərinə məruz qaldıqda əhəmiyyətli dərəcədə zədələnir.

Günəşin köməyi ilə orqanizmimizdə istehsal edilən təbii D vitamini sulfatlıdır. Ona görə də o həm suda, həm də yağda həll olunmaq qabiliyyətinə malikdir. Nəticədə bədənin hər hüceyrəsinə, hər toxumasına və orqanına asanlıqla daxil ola bilir. Süni D vitamini isə sulfatsızdır. Buna görə də ilk seçim günəşdən alınan təbii D vitamini olmalıdır.

D vitamini həddindən artıq olduqda qanda kalsium səviyyəsini artırır. Bu, ürək ritminin pozulmasına, böyrək daşlarının əmələ gəlməsinə və əzələ kramplarına səbəb ola bilər. K vitamininin artıqlığı laxtalanma pozğunluğuna səbəb ola bilər. B1 və B6 vitaminlərinin həddindən artıq istehlakı sinir sisteminə zərər verə bilər və əllərdə və ayaqlarda uyuşma, hissiyyat itkisi və zəiflik yaradır.

## Bu vitaminlərin birlikdə qəbulu zərərlidir

Müxtəlif dərmanlarla birlikdə qəbul edilən vitaminlər bir-birinə qarşılıqlı təsir edərək, effektivliyi müsbət və ya mənfi istiqamətdə dəyişə bilər. Üstəlik, qida əlavələrində çox vaxt müəyyən bir vitamin və ya mineral tövsiyə olunan gündəlik normadan dəfələrlə çox olur. Nümunə olaraq göstərilə bilər ki, A vitamini qəbul edən zaman E vitamini də istifadə edilməlidir ki, bağırsaqda retinolun turşulaşmasının qarşısı alınsın. A və E vitaminlərini qəbul edərkən, eyni zamanda C vitaminindən də istifadə etmək olar. Belə ki, C vitamini bu iki vitamini gücləndirən təbii katalizatordur. Lakin A və E vitaminləri qəbul edərkən K vitamini qəbul edilməməlidir.

B2 və B6 vitaminlərinin birlikdə qəbulu məsləhət görülür. B6 vitamini tək aktiv olmayan formada sadəcə orqanizmdən keçərək xaric olur. Məhz B2 vitamini onu mənimsədir. Bu vitamin sink üçün də təbii gücləndiricidir. B2, həmçinin kalsiumun miqdarına nəzarət edir, onun defisitinin qarşısını alır. B6 vitamininin maqniy ilə, B9-un C vitamini ilə, B12 vitamininin kalsium ilə qəbulu tövsiyə olunandır.

D vitamini olmadan kalsiumun orqanizm tərəfindən mənimsənilməsi mümkün deyil. Əgər orqanizmdə D vitamini azdırsa, deməli, kalsium da yoxdur. Ona görə bu vitaminləri ayrı təyin etmək nəticə vermir.

Bir qrupdan olan B1, B2 və B3 vitaminlərinin birgə qəbulu məsləhət görülmür. Onlar bir-birinə mənfi təsir edərək, effektsizləşirlər. Həmçinin B9 vitamininin sink ilə, E vitamininin dəmir ilə, sinkin kalsium ilə qəbulu yolverilməzdir.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# ALLAH RƏHMƏT ELƏSİN!

Bakı Biznes Universitetinin rektoru professor İbad Abbasov və universitetin professor-müəllim heyəti Milli Aviasiya Akademiyasının kafedra müdiri professor Səlim Müslümova həyat yoldaşı
**NƏZAKƏT MÜSLÜMOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Aviasiya Akademiyasının Hüquq kafedrasının dosenti Şöhlət Kərimov akademiyanın kafedra müdiri professor Səlim Müslümova həyat yoldaşı
**NƏZAKƏT MÜSLÜMOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağalar Vəliyev ailəsi ilə birlikdə Səlim Müslümova həyat yoldaşı
**NƏZAKƏT XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Akademik Mehdi Mehdizadə adına Cəbrayıl şəhər tam orta məktəbin 1980-ci il buraxılış 10a sinfinin məzunları sinif yoldaşları İlham Hüseynova anası
**ŞƏFİQƏ ŞƏMİL QIZI HÜSEYNOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3065**
**Sifariş 1456**

**Qiyməti 60 qəpik**